QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 184 (5904) **8 oktyabr** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# “Azərbaycan Rusiyanı mühüm tərəfdaşlardan biri, mehriban dost, qonşu hesab edir”




*Azərbaycan Prezidenti İlham Əliyevin*
*Rusiyanın “Rossiya” və “Birinci” televiziya kanallarına müsahibəsi*

Səh 2

4

**Əli Əhmədov: “Avantürist bəyanatın qarşısına ədalətli və sərt bəyanat qoyuldu”**



4

**Rusiyanın ən nüfuzlu yazıçısı Aleksandr Proxanov: Zal İlham Əliyevi alqışlayırdı**



5

**Uğurlarımızı həzm etməyən ünsürlər inkarçılıqla özlərinə qarşı ictimai qınağı daha da gücləndirirlər**



# "Azərbaycan Rusiyanı mühüm tərəfdaşlardan biri, mehriban dost, qonşu hesab edir"

## *Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın "Rossiya" və "Birinci" televiziya kanallarına müsahibəsi*



***Xəbər verildiyi kimi, oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Soçi şəhərinə səfəri zamanı "Valday" Beynəlxalq Diskussiya Klubunun iclası ərəfəsində Rusiyanın "Rossiya" və "Birinci" televiziya kanallarına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.***

- Salam, cənab Prezident. Aleksey Qolovko, "Vesti" proqramı.

- Çox xoşdur.

- Bu il Valdayın mövzusu "Şərqin şəfəqi"dir, Asiya ölkələrinə xüsusi diqqət yetirilir. Rusiya kimi Azərbaycan da demək olar Avropa ilə Asiyanın qovuşuğunda yerləşir. Siz burada hansı əsas məsələləri qaldırmaq və hansı suallara cavab almaq istərdiniz?

- Əvvəla, "Valday" Diskussiya Klubunda iştirak etmək dəvətinə görə Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinə minnətdarlığımı bildirmək istərdim. Valday klubu özünü dünya gündəliyinin və çox vacib aktual məsələlərin müzakirəsi üçün diskussiya platformalarından biri kimi göstərib. Əlbəttə ki, mən bu gün Vladimir Vladimiroviçlə görüşmüşəm. Biz ikitərəfli münasibətlərimizin çox zəngin olan və xeyli sahələri əhatə edən gündəliyini müzakirə etmişik. Buna görə də mən, şübhəsiz ki, ikitərəfli gündəliyi, Azərbaycanın rastlaşdığı mühüm problemləri, yeni çağırışları işıqlandırmağı planlaşdırıram. Odur ki, mən bu gün çox maraqlı diskussiyaya ümid bəsləyirəm.

***-Məlum olduğu kimi, Azərbaycanın Qərb ölkələri ilə yaxşı münasibətləri var. Rusiya artıq bir neçə ildir ki, sanksiyalar altındadır. Bu, Sizə Rusiya ilə əməkdaşlıq etməyə və bütün bu ikitərəfli layihələri inkişaf etdirməyə mane olmurmu?***

- Xeyr, qətiyyən mane olmur. Bizim Rusiya ilə münasibətlərimiz hər hansı xarici siyasi gündəlikdən azaddır. Bu münasibətlər zamanın sınağından çıxıb. Hər iki tərəf bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri adlandırır. Bu, həqiqətən də belədir. Çünki biz həm qonşuyuq, həm də mehriban dostlarıq. Son vaxtlar bizim münasibətlərimiz xeyli səmərəli və keyfiyyətli olub. Biz həm beynəlxalq meydanlarda əməkdaşlıq edir, həm də bir-birimizi dəstəkləyirik. Deməliyəm ki, AŞPA-nın iyun sessiyasında Rusiya nümayəndə heyətinin qayıdışı məsələsi həll olunarkən, Azərbaycan nümayəndə heyəti tam tərkibdə Strasburqda Rusiyanın Avropa Şurası Parlament Assambleyasına qayıtmasına səs vermişdi. Biz, həmçinin BMT, ATƏT, təbii ki, MDB məkanında sıx qarşılıqlı fəaliyyət göstəririk, çox sıx ticari-iqtisadi münasibətlərimiz mövcuddur. Bu il əmtəə dövriyyəsi 20 faizdən çox artıb. Rusiyadan Azərbaycana, Azərbaycandan Rusiyaya çoxmilyardlı investisiyalar qoyulur. Energetika, nəqliyyat, humanitar, hərbi-texniki və turizm sahələrində əməkdaşlıq edirik. Yəni, əməkdaşlıq etmədiyimiz sahələrin adını çəkmək daha asandır. Buna görə, bir daha demək istəyirəm ki, müstəqil xarici siyasət kursu yeridən ölkə kimi Azərbaycan Rusiyanı mühüm tərəfdaşlardan biri, mehriban dost, qonşu hesab edir. Prezident Putinlə bugünkü görüş bunu bir daha təsdiq etdi.

***-Daha bir sual siyasət barədə yox, Sizin alma-mater - Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu ilə bağlıdır. Tezliklə yubileyi olacaq. Siz Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları arasında ilk Prezidentsiniz. Bu təhsil Sizə hansı əsas keyfiyyətləri verib və bu, Sizə indi siyasi fəaliyyətinizdə necə kömək edir?***

-Bilirsiniz, tələbəlik illəri hər bir insan üçün xüsusi illərdir. Bu, yetkinləşmək, müstəqil həyata qədəm qoymaq illəridir. Məndə bu dövr yaşayış yerimi dəyişərək Bakıdan Moskvaya köçməklə müşayiət olunub. Deməliyəm ki, valideynlərim məni məktəbə tez, hələ 6 yaşım tamam olmamış göndəriblər. Buna görə də mən orta təhsilimi 16 yaşım tamam olmamış bitirmişəm. Açıq deyəcəyəm, mənim heç pasportum da yox idi. Buna görə də mən Moskvaya ali məktəbə qəbul olunmağa arayışla gəlmişdim. İlk qış sessiyası qabağı isə 16 yaşım tamam oldu və mən pasport aldım. Əlbəttə, bu yeniyetməlik çağıdır. Amma mən institutda özümü çox rahat hiss edirdim. Çünki şərait çox müsbət idi, həm qrupdakı uşaqlarla, həm də müəllimlərlə çox yaxşı münasibətlərim yaranmışdı. Həmin illər unudulmazdır. Onlar mənə bilik, ünsiyyət təcrübəsi verib. Bu, ilk müstəqil həyat təcrübəsi idi. Deməliyəm ki, institutu bitirdikdən sonra mən ölkələrdən birində SSRİ səfirliyində işə təyinat alsam da, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda qalmağa üstünlük verdim. Aspiranturaya daxil oldum, dissertasiya müdafiə etdim, bundan sonra xeyli illər orada işlədim. Yəni, mənim 15 ilim institutla əlaqədar olub. Əlbəttə ki, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu məzunlarının ilk forumunun mənim təşəbbüsümlə Bakıda keçirilməsini elə bütün bunlar müəyyənləşdirdi. Hətta yadımdadır, o vaxt zarafat etdim ki, başqa cür ola da bilməz, təkcə ona görə yox ki, həmin vaxt mən yeganə Prezident idim, həm də əlifbaya uyğun olaraq istər ölkənin, istərsə də soyadımın ilk hərfinə görə belə olmalı idi. Forum Bakıda keçirilməli idi. Çox şadam ki, bu forum artıq ənənəyə çevrilib, məncə artıq 5-ci dəfə keçirilib. Əlbəttə ki, bu, hamımızı birləşdirir. İnstitut müəllimlərimi, dostlarımı fərəhlə xatırlayıram və bu yubileydə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna yeni uğurlar arzulayıram. Şadam ki, bu ali məktəbə uzun illərdir mənim mehriban dostum Anatoli Vasilyeviç Torkunov başçılıq edir, institutun inkişafında, dünyanın ən aparıcı ali məktəblərindən biri kimi tanınmasında onun çox böyük xidmətləri var.

***- Sonuncu qısa sual. Prezident Tokaev də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunudur. Bu, Azərbaycan-Qazaxıstan münasibətlərinin inkişafına kömək edir?***

-Bilirsiniz, şadam ki, mən indi məzun kimi Prezident olaraq tək deyiləm. Əlbəttə, biz Kasım-Jomart Kemeleviçlə bir-birimizi lap çoxdan tanıyırıq. Biz həm Qazaxıstanda, həm Azərbaycanda, həm də beynəlxalq tədbirlər çərçivəsində görüşmüşük. Əlbəttə, o, Prezident seçiləndə mən ona zəng vurub təbrik etdim, hər ikimiz təməli Azərbaycan Prezidenti Heydər Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tərəfindən qoyulan uzun illərin mehriban münasibətlərini daha da inkişaf etdirməyə davam edəcəyimiz barədə fikir mübadiləsi apardıq. Yəni, biz bu ənənələri davam etdiririk və əminəm ki, gələcəkdə Qazaxıstanla Azərbaycan elə bu cür qarşılıqlı aktiv fəaliyyət göstərəcək.

***-Çox sağ olun.***

-Sağ olun.

x x x

- Salam. Birinci kanal. Yeri gəlmişkən, mən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişəm. Biz müəyyən mənada bu gün Sizinləyik.

- Neçənci ildə?

***- 1998-ci ildə, beynəlxalq jurnalistika fakültəsini. Bizim ilk sualımız bu gün burada keçirilən tədbirlərlə, yəni, Valday ilə bağlıdır. Mövzu "Şərqin şəfəqi"dir. Yəni, Şərqin dirçəlişi, Şərq istiqamətinin möhkəmləndirilməsidir. Azərbaycan, Rusiya və Rusiya-Azərbaycan münasibətləri bu prosesdə hansı rol oynayır?***

-Azərbaycan coğrafi cəhətdən Şərqlə Qərb arasında yerləşir. Buna görə də biz həm Şərq ölkələrini birləşdirən beynəlxalq təşkilatlarda, həm də məsələn, Avropa Şurası kimi təşkilatda iştirak edirik. Təbii ki, coğrafiya geosiyasətə təsir edib və edir. Bu gün Azərbaycan özünün coğrafi vəziyyətindən istifadə edir. Hesab edirəm ki, bu gün biz həm humanitar sahədə, həm nəqliyyat sahəsində, həm də bütün digər sahələrdə Şərq və Qərb ölkələri arasında dialoq qurulmasında müəyyən rol oynayırıq. Rusiya dünyanın ən iri ölkəsidir. Buna görə, əlbəttə ki, təkcə Asiya qitəsində deyil, həm də bütün qlobal dünyada Rusiyanın rolu çox böyükdür. Rusiyanın rolu böyüyür, həm potensialı, həm də gücü artır.

Bizim ikitərəfli münasibətlərimizə gəlincə, bunlar çox müsbətdir, çox yaxşı dinamikaya malikdir, həyatın bütün sahələrini əhatə edir və çox etibarlıdır. Mənim Prezident Vladimir Vladimiroviç Putinlə keçən il 4, bu il 2 şəxsi görüşüm olub. Bu görüşlər ikitərəfli qarşılıqlı fəaliyyətin inkişafına çox ciddi impuls verir və həmçinin bizim regiondakı vəziyyətə müsbət təsir göstərir.

Ardı Səh. 3

# "Azərbaycan Rusiyanı mühüm tərəfdaşlardan biri, mehriban dost, qonşu hesab edir"

## *Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın "Rossiya" və "Birinci" televiziya kanallarına müsahibəsi*

Əvvəli Səh. 2

***-Dünyanın quruluşu, Şərqdən baxış. Şərqdən baxdıqda, dünya hansı prinsiplər əsasında qurulmalıdır?***

-Fikrimcə, biz hansı tərəfdən baxsaq da, əsas prinsip beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunmasıdır. Təəssüf ki, onlar kobud şəkildə pozulur və bu prinsiplərə hörmətin seçim yanaşması mövcuddur. Azərbaycan beynəlxalq hüququn prinsiplərinə riayət olunmamasından zərər çəkən ölkə kimi, o cümlədən ərazilərimizin Ermənistan tərəfindən işğalı ilə əlaqədar, əlbəttə ki, bütün beynəlxalq tədbirlərdə beynəlxalq hüququn zəruriliyinə təkid edir. BMT-nin Təhlükəsizlik Şurası bəzən qətnamələri bir neçə günə yerinə yetirir, bizə gəldikdə isə qətnamələr 25 ildən artıqdır ki, kağız üzərində qalır. Bununla da bu aparıcı dünyəvi təsisat müəyyən dərəcədə nüfuzdan salınır. Buna görə də düşünürəm ki, beynəlxalq hüquq dünyadakı vəziyyətin əsas amili olmalıdır. Amma gerçəklik belədir ki, bu, baş vermir. Dünyanın qlobal işlərində Azərbaycan kimi ölkədən çox az şey asılıdır. Buna görə də düşünürəm ki, əsas məsuliyyət dünyanın aparıcı ölkələrinin üzərinə düşür və onlar dünyada sülhün qorunması üçün həmin prinsiplərə riayət etməlidirlər.




***-İndi Sizə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu barədə bir-iki sual vermək istərdim. İnstitutla bağlı hansı xatirələriniz qalıb?***

-Çox xoş xatirələr qalıb. Həyatımın 15 ili institutla bağlıdır. Təhsil, aspirantura, iş, çoxlu dostlar, tanışlar və əlbəttə ki, mənim üçün həm yetkinləşmə, həm də biliklərə yiyələnmək cəhətdən çox vacib olub. Buna görə də mən rəhbərliklə daim əlaqə saxlayıram. Mən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu məzunlarının bir neçə il əvvəl Bakıda keçirilən ilk forumunun təşəbbüskarıyam. İndi bu forum artıq daimi fəaliyyət göstərən tədbirə çevrilib. Mən institutun 60 illiyinə həsr olunmuş təntənəli tədbirlərdə iştirak etmişəm, eləcə də 75 illiyi ərəfəsində bütün dostlarımı, kurs yoldaşlarımı, müəllimlərimi bu şanlı yubiley münasibətilə təbrik edirəm.

***-Bəs necə hesab edirsiniz, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu həyatınızda hansı rolu oynayıb. Əgər başqa ali məktəb olsaydı, hər şey başqa cür olardımı?***

-Bilmirəm, demək çətindir necə olardı. Amma əlbəttə, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu çox mühüm rol oynayıb. Çünki orada aldığım biliklər gələcək işimdə həqiqətən mənə çox kömək edib. Mən institutdan getdikdən sonra, müəyyən mənada, peşəmə uyğun olmayan işlə məşğul olurdum. Amma Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda qazandığım biliklər, vərdişlər, o cümlədən xarici dilləri bilməyim artıq Prezident kimi mənə çox gərəkli oldu.

***-Çox sağ olun.***

# Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi qəbul edib. AZƏRTAC xəbər verir ki, qonağı salamlayan Prezident İlham Əliyev dedi:

-Sizi mühüm hadisə - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının növbəti sammiti ərəfəsində yenidən görməyimə şadam. Bu, mühüm hadisəyə hazırlığın son ştrixlərini müzakirə etmək üçün yaxşı imkandır. Biz çox fəal hazırlaşırıq. Əminəm ki, sammit yüksək səviyyədə keçəcək, bizim dövlətlərin əməkdaşlığı işində yeni mərhələlərə nail olacağıq.

Son illərdə əməkdaşlığımızın coğrafiyası genişlənir. Bizim üçün çox xoşdur ki, qardaş dövlətlər təşəbbüslərimizə qoşulur. İndiki sammit yubiley sammiti olacaq. Azərbaycanın qədim şəhəri olan Naxçıvanda 10 il əvvəl biz Əməkdaşlıq Şurasının yaradılması ilə bağlı qərar qəbul etdik. Mən bu mühüm qərara gətirib çıxaran bütün məqamları təfərrüatı ilə xatırlayıram. Siz bilirsiniz ki, Azərbaycan qardaş dövlətlərin başçılarını ilk dəfə deyil ki, qəbul edir. Buna görə də əminəm ki, həm təşkilati tərəfi, həm də məzmun cəhəti yüksək səviyyədə olacaq. Bu mühüm tədbir ərəfəsində biz sizinlə sammitə hazırlıqla bağlı son məqamları müzakirə etməliyik ki, tədbir uğurla keçsin və bizim ölkələri daha da sıx birləşdirsin.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev:



-Bizi qəbul etdiyinizə görə sağ olun, cənab Prezident. Doğrudan da sammit artıq yaxınlaşmaqdadır. Həqiqətən də indi görülən işlər və sammitə qədər nələri edə biləcəyimizi Sizə bildirməyimə böyük ehtiyacım var. İlk növbədə, demək istərdim ki, Azərbaycan, ümumiyyətlə, türk birliyi prosesində xüsusi yer tutur. Məhz Azərbaycan torpağı Naxçıvanda razılaşma imzalanıb. Məhz Bakıda, Azərbaycan torpağında siz yubiley sammitini qəbul edirsiniz. Artıq 10 ildir ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası fəaliyyət göstərir. Həmin 10 il bir növ təşəkkül dövrü olub. İndi bu dövrü Sizin siyasi iradəniz, türk birliyinin formalaşması üzrə verdiyiniz mühüm qərarlar sayəsində başa çatdırmışıq. Biz təşəkkül, təsisat dövrünü başa vurmuşuq. İndi isə biz yeni mərhələyə - artıq böyük inteqrasiya mərhələsinə keçirik.

## Əli Əhmədov: "Avantürist bəyanatın qarşısına ədalətli və sərt bəyanat qoyuldu"



"Ermənistanın prezidenti N.Paşinyanın təxribatçı və sərsəm bəyanatı Azərbaycanın Prezidenti İlham Əliyevin sərt və qəti bəyanatı ilə darmadağın edildi. Qarabağ Azərbaycandır! Tarixin təsdiq, beynəlxalq hüququn və birliyin qəbul etdiyi bu məntiqlə razılaşmamaq mümkün deyil. Qarabağ Azərbaycanındır, Azərbaycan xalqına mənsubdur. Onun mənsubiyyəti Paşinyan kimlərin bəyanatı ilə dəyişdirilə bilməz və dəyişdirilməyəcək. Buna Azərbaycan xalqı, onun ordusu və Ali Baş Komandanı İlham Əliyev imkan verməz." Bu fikirləri Baş nazirin müavini, YAP Sədrinin müavini - icra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində paylaşmışdır. Əli Əhmədov bildirib ki, avantürist bəyanatın qarşısına ədalətli və sərt bəyanat qoyuldu. İşğalçı siyasətin aqibəti də beləcə xalqımızın iradəsi və ordumuzun qüdrəti ilə sona çatacaq.

## Rusiyanın ən nüfuzlu yazıçısı Aleksandr Proxanov: Zal İlham Əliyevi alqışlayırdı



Azərbaycan Prezidenti İlham Əliyevin nitq söylədiyi Soçidəki "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında Rusiyanın ən nüfuzlu yazıçısı, tanınmış ziyalı, siyasi və ictimai xadim, İzborsk klubunun sədri və həmtəsisçisi, "Zavtra" qəzetinin baş redaktoru Aleksandr Proxanov da iştirak edib.

AZƏRTAC xəbər verir ki, Aleksandr Proxanov təəssüratlarını Media.az ilə bölüşərək deyib: "Prezident İlham Əliyevin çıxışının əsas ideyası Dağlıq Qarabağ münaqişəsi ilə bağlı idi. Azərbaycan Prezidenti münaqişənin yaranması tarixindən və dalana dirənmiş danışıqlardan ətraflı bəhs etdi, davam edən hərbi əməliyyatlardan danışdı. Onun çıxışından bir müddət əvvəl erməni snayperinin azərbaycanlı dinc sakini öldürməsi barədə informasiya daxil olmuşdu. Prezident İlham Əliyev Yerevanın "Qarabağ Ermənistandır və nöqtə" iddiasını ehtiva edən formuluna digər - "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı ilə cavab verdi.

A.Proxanov qeyd edib: "Ümumilikdə, söhbət Asiyada "hərbi forma" alan yerlərdəki münaqişəli vəziyyətlərdən gedirdi. İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin münaqişələrin nizamlanması məsələsində konstruktiv mövqeyini qeyd edib".

Yazıçı vurğulayıb ki, İlham Əliyevin çıxışı zamanı zalda Ermənistanın nümayəndələri, hər hansı radikallar olmayıb: "Zal İlham Əliyevi alqışlayırdı". Aleksandr Proxanov bu yaxınlarda Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun Nikol Paşinyanın "Qarabağ Ermənistandır" sözlərini pisləyən bəyanatı ilə bağlı sualı da cavablandırıb. O deyib: "Bizim Prezident bu yaxınlarda Ermənistanın lideri və artıq Soçidə Azərbaycan Prezidenti ilə də görüşlər keçirib. Rusiya getdikcə artan qeyri-sabitliyi tarazlaşdırmağa səy göstərir. Lavrovun sözlərinə gəldikdə isə, burada hər şey aydındır. Əlbəttə, Rusiya XİN-in rəhbəri Paşinyanın bəyanatını pisləməli idi".

## Ermənistanda "Əliyevin Paşinyana tutarlı cavabı" sərlövhəli məqalə dərc etdirən jurnalist təqib olunur



Ermənistanda "Əliyevin Paşinyana tutarlı cavabı" sərlövhəli məqaləni dərc etdirən "Aeli" ("Ayna") saytının baş redaktoru Anjela Tovmasyanın ofisinə basqın olub. Bu yaxınlarda baş nazir Nikol Paşinyanın tərəfdarlarının parlamentdə istefasına səs verdikləri Konstitusiya Məhkəməsinin sədri Qrayr Tovmasyanın jurnalist bacısı Anjela Tovmasyan hökumətdən bu məqaləyə və qardaşının mövqeyinə görə təqiblərə son qoyulmasını tələb edib. O əlavə edib ki, baş nazirin tərəfdarlarının onu "Qarabağ əleyhinə" fəaliyyətdə ittiham etmələri də gülüncdür. Jurnalist qadının ofisinə basqın edənlər məqaləni dərc etmiş Hayeli.am qəzetinin də bağlanılmasını tələb ediblər.

AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, "Aeli" ("Ayna") saytının baş redaktoru və eyniadlı mətbuat klubunun rəhbəri olan Anjela Tovmasyan jurnalistlərə özünün Yerevanın mərkəzindəki ofisinə basqın təşkil edildiyini və bu insidentin onu və qardaşını qorxutmaq məqsədi daşıdığını bildirib. O qeyd edib ki, hakimiyyətin öyrətdiyi dörd nəfər binanın şüşələrinə yumurta atıb və divarlara plakatlar yapışdırıblar. Bu iyrənc hərəkətləri həmin binada yerləşən "Qraparak" qəzetinin müxbiri videoya çəkib. Jurnalist qadın deyib ki, ofisə basqın edilməsi onun jurnalist fəaliyyəti və qardaşının hakimiyyətin qanunsuz qərarlarına etiraz etməsi ilə əlaqədardır. Onun sözlərinə görə, Paşinyanın tərəfdarları bir neçə dəfə onun ailəsinə və özünə xəbərdarlıq mesajları göndəriblər. A.Tovmasyan insidenti törədənlərin cəzalandırılmasını tələb edib.

## Məşhur jurnalist Arkadi Mamontov: Bizim Prezident Vladimir Putinin İlham Əliyevlə dostluq etməsi təsadüf deyil



***Rusiya və Azərbaycan arasında informasiya əməkdaşlığının səviyyəsi: postsovet məkanında bugünkü reallıqları nəzərə alsaq, Rusiya və Azərbaycan cəmiyyətlərinin ehtiyaclarına nə dərəcədə uyğundur?***

Media.az saytı Rusiya Televiziya Akademiyasının üzvü, Rusiyanın ən məşhur jurnalistlərindən biri, televiziya aparıcısı, çoxsaylı sənədli filmlərin müəllifi Arkadi Mamontovdan bu mövzuda müsahibə alıb. AZƏRTAC həmin müsahibəni təqdim edir.

- Mən hesab edirəm ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında informasiya mübadiləsi son dərəcə vacibdir, amma o ürəkaçan deyil.

***- Bundan ötrü nə çatışmır?***

- Əlbəttə biz, Rusiyada, müasir Bakının indi necə yaşadığını daha yaxşı bilmək istərdik. Şəxsən mənim üçün indi Azərbaycan kinematoqrafının necə inkişaf etdiyini, indi Azərbaycan haqqında nələr danışdıqlarını (Rusiyada - redaksiya) bilmək maraqlı olardı. Hər şeydən əvvəl, deməliyəm ki, sizin dəyərli Prezidentiniz İlham Əliyev çox güclü şəxsiyyət, böyük siyasətçidir. Təsadüfi deyil ki, bizim prezidentimiz Vladimir Putin İlham Əliyevlə dostluq edir, onunla bərabərhüquqlu ünsiyyət saxlayır. Onlar, necə deyərlər, eyni dalğadadırlar. Daha bir məqam: yayda Bakıda keçirilən "JARA" festivalı hamıya məlumdur. Sizin dadlı meyvələr, tərəvəzlər də öz yerində.

Mənim üçün, məsələn, Bakı haqqında Azərbaycan sənədli kino istehsalçıları tərəfindən çəkilmiş sənədli filmi görmək maraqlı olardı. Müstəqillik illəri ərzində bu şəhərdə nələr baş verib, o necə dəyişib? Deyirlər ki, Bakı Şərqin əsl mirvarisinə çevrilib.

Bizim həmyerlilərimizin necə yaşadıqlarını bilmək maraqlı olardı. Yeri gəlmişkən, mən bilirəm ki, azərbaycanlıların əksəriyyəti rusca aksentsiz danışır. Bu əladır! Bakı - beynəlmiləl şəhərdir, mən keçən əsrin 90-cı illərində sizdə olmuşam. Çox xoş xatirələrim qalıb. Ona görə, əgər Rusiya televiziyasında belə filmlər çıxsaydı, bu çox yaxşı olardı.

Əvvəllər, sovet dövründə sənədli kinonun sistemi vardı, Bakı, Kiyev, Minsk və başqa şəhərlərdə ittifaq kinostudiyaları vardı. Hər respublikanın kinostudiyası həmin respublikanın həyatı haqqında silsilə sənədli filmlər təqdim edirdi. İnsanlar bir-biri ilə bağlı idi. Bu, başqa respublikaların nümayəndələrinə hörmət, beynəlmiləlçilik, bir-birinin adətlərinə və mədəniyyətinə hörmət tərbiyə edirdi. İndiki kimi gərginlik yox idi. Moskvada, Novosibirsk, İrkutsk və başqa şəhərlərdə həyat haqqında rus filmlərini göstərmək də maraqlı olardı.

Azərbaycan və Rusiya televiziya studiyaları arasında mübadilə lazımdır. Deyək ki, Azərbaycan kanalında Rusiya haqqında, Rusiyada isə Azərbaycan haqqında veriliş yayımlanır.

***- Müəyyən layihələrin reallaşdırılması üçün sizi Bakıya dəvət etsələr, gələrdinizmi?***

- Əlbəttə, məmnuniyyətlə. Məsələ yalnız həmin səfərin tarixinin razılaşdırılmasından asılıdır (gülümsəyir - redaksiya.).

***- Bəzən belə fikirlərsəslənir ki, Rusiya ilə Azərbaycan arasında informasiya əməkdaşlığının dərinləşməsi üçün hər iki ölkəni birləşdirən hansısa bir ciddi media qurumu yaratmaq lazımdır...***

- Bilirsiniz, belə məsələlər bizim ölkələrimizin rəhbərliyi səviyyəsində həll edilir. Amma, əlbəttə, güclü Rusiya-Azərbaycan informasiya agentliyi yaratmaq maraqlı olardı, həmin agentlik Rusiyadan və Azərbaycandan çox yüksək səviyyədə qarşılıqlı xəbərlər verər, telekörpülər yaradardı.

Rusiya və Azərbaycan - müxtəlif və müstəqil dövlətlərdir. Mən bu dövlətləriyenidən birləşməyə çağırmıram. Amma biz qonşularıq, biz iqtisadi cəhətdən indi də bağlıyıq, yaxın gələcəkdə də bağlı olacağıq. Yaşlı nəsil yaxşı xatırlayır ki, biz vaxtilə bir ölkənin tərkibində olmuşuq. Mədəni əlaqələri, informasiya əlaqələrini kəsmək olmaz. Bu,qarşıdakı illərdə yarana biləcək çətinliklərə bizim hamımızın sinə gərib dayanmağımıza imkan verəcək.

## Sergey Markov: Prezident İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət qazanıb

Prezident İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət qazanıb. "Valday" Beynəlxalq Diskussiya Klubunun Soçidə keçirilmiş iclasında iştirak edən akademik və media birliklərinin nümayəndələri Dağlıq Qarabağ münaqişəsi barədə lazımınca məlumatlı deyildi. Səbəb odur ki, bu birliyin mövqeyi erməni diasporunun təsirinə məruz qalmış KİV-lər tərəfindən yayılan informasiya əsasında formalaşır. Bu mənada, Azərbaycan Prezidenti mürəkkəb bir auditoriya qarşısında çıxış edirdi. Lakin Prezident İlham Əliyev öz zəngin təcrübəsi və böyük diplomatik istedadı sayəsində mövqeyini dəqiq və aydın şərh etməyə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması kontekstində Azərbaycanın maraqlarının və fəaliyyətinin məntiqini izah etməyə müvəffəq oldu. Hesab edirəm ki, onun çıxışı Beynəlxalq Diskussiya Klubunun iclasında ən güclü bəyanatlardan biri oldu.




AZƏRTAC xəbər verir ki, tanınmış rusiyalı politoloq, "Siyasi Araşdırmalar İnstitutu" qeyri-kommersiya tərəfdaşlığının baş direktoru Sergey Markov bu fikirləri oktyabrın 7-də "Sputnik Azərbaycan" multimedia mətbuat mərkəzində keçirilmiş mətbuat konfransında Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi "Valday" Beynəlxalq Diskussiya Klubunun növbəti iclasının yekunlarını təhlil edərkən söyləyib.

Rusiyalı məşhur politoloq regionda və dünyada baş verən proseslərlə əlaqədar Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin gələcək inkişafı barədə fikirlərini də bölüşüb. Onun sözlərinə görə, ölkələr arasında münasibətlərdə "Bakı ab-havası" formalaşıb və "Valday" Beynəlxalq Diskussiya Klubunun Soçidə keçirilmiş iclasına Azərbaycan Prezidenti İlham Əliyevin dəvət edilməsi Moskva ilə Bakı arasında dostluq münasibətlərinin növbəti təzahürüdür.

# Uğurlarımızı həzm etməyən ünsürlər inkarçılıqla özlərinə qarşı ictimai qınağı daha da gücləndirirlər

## YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlarla iş komitəsinin sədri Siyavuş Novruzovun yap.org.az-a müsahibəsi



***- Siyavuş müəllim, beynəlxalq baxışın yüksək olduğu Azərbaycanın uğurlarının bəzi dairələr tərəfindən qısqanclıqla qarşılanmasını necə şərh edərdiniz?***

- 28 illik müstəqilik tarixinə malik olan Azərbaycanın zaman baxımından qısa olan bir dövrdə əldə etdiyi uğurların miqyası göz önündədir. Ulu öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasətin son 16 ildə dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan dünyayada ən islahatçı ölkə kimi tanınır, ən əsası yeni iqtisadi və sosial inkişaf modeli ilə mövqeyini daha da möhkəmləndirir. Bu uğurlarımıza yol açan əsas amillərdən biri də malik olduğumuz təbii resurslardan səmərəli istifadə və əldə olunan neft gəlirlərinin təyinatı üzrə xərclənməsidir. Ölkə Prezidenti İlham Əliyevin çıxışlarında da bu məqam öz əksini tapır ki, neftlə zəngin çox ölkələr var. Amma bu resurslar heç də həmin ölkələrə xeyir, uğur gətirməyib. Əhali arasında təbəqələşmə prosesi sürətli xarakter alıb. Lakin Azərbaycanın inkişaf strategiyasının dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə uyğun müəyyənləşdirilməsi bu kimi problemlərin yaşanmamasına, ən əsası neft gəlirlərinin əhali arasında bərabər bölgüsünə geniş imkanlar yaradıb. Ölkəmizdə iqtisadi tərəqqi güclü sosial siyasətlə tamamlanır. Təkcə cari ilin ötən dövründə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlara diqqət yetirmək kifayətdir. Təsdiqlənən iki sosial paket minlərlə insanın sosial müdafiəsinin yaxşılaşdırılmasına xidmət edir. O da məlumdur ki, artıq oktyabrın birindən minimum pensiyaların məbləği 200 manata çatdırılıb. Göründüyü kimi, dövlətimizin başçısı İlham Əliyev hər kəsin Prezidenti olduğunu, Azərbaycanın hərtərəfli inkişafının prioritetliyini atdığı addımları ilə təsdiqləyir.

Xaric siyasətin daxili siyasətin davamı olduğunu nəzərə alsaq bu gün Azərbaycanın beynəlxalq aləmdə möhkəmlənən mövqeyi də göz önündədir. Azərbaycan heç bir dövlətin, beynəlxalq təşkilatın diktəsi ilə hərəkət etmir. Əksinə Azərbaycan regionun lider dövləti olaraq bölgədəki proseslərdə aparıcı rol oynayır. Eyni zamanda, Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən əsas ölkələrdən biridir. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bu gün bölgədə Azərbaycanın iştirakı olmadan hansısa siyasi və iqtisadi layihələnin həyata keçirilməsi qeyri-mümkündür. Ölkəmizin təşəbbüsçüsü olduğu layihələr ölkələr, xalqlar arasında körpü rolunu oynayır. Dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı daha da gücləndirir, yeni-yeni hədəflərin müəyyənləşdirilməsini stimullaşdırır. Azərbaycanın inkişaf etmiş ölkələr sırasında görmək istəyimiz məhz uğurlarımıza və gələcəyə hesablanmış inkişaf strategiyamıza əsaslanır.

Azərbaycanın beynəlxalq mövqeyi möhkəmlənir. Təkcə dövlətimzin başçısı İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri zamanı "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında çıxışını, həmçinin Rusiyanın "Rossiya" və "Birinci" televiziya kanallarına müsahibəsinə diqqət yetirmək kifayətdir. Dövlətimizin başçısı İlham Əliyevin işğalçı Ermənistana və onun havadarlarına ciddi mesaj kimi dəyərləndirilən "Qarabağ tarixi əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı bu gün beynəlxalq aləmdə geniş müzakirə olunmaqdadır. Dövlətimizin başçısı İlham Əliyev bu kimi bəyanatları ilə Azərbaycanın öz siyasətində müstəqil olduğunu bir daha dünyaya nümayiş etdirir.

Azərbaycanın bərabərhüquqlu, qarşılıqlı hörmətə və maraqlara əsaslanan xarici siyasəti onun istər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrinin inkişafına, mövqeyinin möhkəmləndirilməsinə geniş imkanlar açır. Təbii ki, bu uğurlarımızı həzm etməyən daxili və xarici bədxahlarımız görülən işlərin əhəmiyyətini azaltmaq, ictimai fikri çaşdırmaq üçün ən çirkin yollara əl atır və bundan sonra da atacaqlar. Sosial şəbəkələrin imkanlarından istifadə edərək cəmiyyətdə qarışıqlıq yaratmaq istəyənlər var. Onların arxasında xarici antiazərbaycan qüvvələrin dayandığı aydındır. Onları maliyyələşdirənlər sırasında erməni lobbisinin xüsusi yer tutduğu da məlum olaylardandır. Xaricdəki mühacir azərbaycanlılar ölkəmizdə təkmil islahatlara, genişmiqyaslı quruculuq işlərinə kölgə salmaq üçün ən çirkin yollara əl atırlar. Yalanlarını həqiqət kimi sırımaq istiqamətində cəhdlər göstərirlər. Azərbaycanın uğurlarını həzm etməyi bacarmadıqlarındandır ki, ölkə Prezidentinin, o cümlədən bu və ya digər dövlət məmurlarının ünvanına əsassız fikirlər səsləndirirlər. Amma unudurlar ki, belə cəhdlər sabun köpüyündən başqa bir şey deyil. Bu baxımdan ki, ağı qaradan seçməyi bacaran xalq dövlətimizin həyata keçirdiyi siyasətin dəstəkçisi olmaqla yanaşı, bu inkişafı, tərəqqini gündəlik həyatında hiss edir. Dövlətimizin başçısı İlham Əliyevin daim bəyan etdiyi kimi, xalqına güvənir, xalqından dəstək alır, həyata keçirilən təşəbbüslərin xalq tərəfindən dəstəklənməsi ona böyük güc verir. Ölkəmizdə sabitliyin təminatçısı olan xalq-iqtidar birliyinin günbəgün möhkəmlənməsi fonunda xarici antiazərbaycan qüvvələrin, həmçinin onların əlində alətə çevrilən daxili bədxahlarımızın cəhdləri boşa çıxır.

***- Siyavuş müəllim, xeyli müddətdir ki, sosial şəbəkələrdə Azərbaycan hakimiyyətinə, Prezidentə və onun ətrafında olan məmurlara qarşı ləkələmə kampaniyası aparılmaqdadır. Bu çirkin təbliğatın arxasında hansı maraqlar dayanır?***

- Təkcə son zamanlarda hədəfə götürülən məmurlara diqqət yetirdikdə məqsəd daha aydın şəkildə özünü büruzə verir. Milli Məclis haqqında, Milli Məslisin sədri Oqtay Əsədov və parlamentin deputatları, həmçinin SOCAR-ın prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayevin və başqalarının haqqında yalan, əsassız fikirlərin səsləndirilməsində məqsəd onların rəhbərlik etdikləri strukturların Azərbaycanımız üçün gördükləri işlərin əhəmiyyətini azaltmaq, ictimai fikirdə çaşqınlıq yaratmaq, ən əsası uğurlarımıza qara eynəkdən baxmaqdır. Bunu əsasən Avropadakı "söyüş müxalifəti" və daxildəki əlaltıları həyata keçirir.

"Söyüş müxailfəti"nin bu gün tənqid üçün əsas hədəfə götürdüyü şəxslərdən olan Oqtay Əsədovun rəhbərlik etdiyi Milli Məclis qanunverici orqan olaraq ölkəmizin hərtərəfli inkişafına geniş imkanlar yaradan qanunların qəbulunda əhəmiyyətli rol oynayır. O qanunlar ki, daim yenilənir, təkmilləşir, hər sahədə irəli sürülən təşəbbüslərin gerçəkləşməsinə öz töhfələrini verir. O kəslər Oqtay Əsədov haqqında yazanda ümumilikdə parlamenti gözdən salmaqla və fəaliyyətini inkar etməyə cəhd edirlər. Bu qətiyyən yolverilməzdir. Bunların çirkin məqsədləri hamıya bəllidir. Bu baxımdan ki, hədəf götürdükləri digər şəxsin, Milli Məclisin deputatı Rövnəq Abdullayevin rəhbərlik etdiyi SOCAR-ın ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlu icrasına davamlı töhfələrini, dünyanın tanınmış şirkətləri ilə bir sırada addımlamasını, beynəlxalq səviyyədə də etiraf olunduğu kimi, daim uğurun izlədiyini, ölkənin hüdudlarından kənarda reallaşdırdığı investisiya layihələrin ölkəmizə qazandırdığı iqtisadi və siyasi dvidentlərini geniş şərh etməyə ehtiyac yoxdur. Təkcə son bir ildə həyata keçirilən layihələrə diqqət yetirmək kifayətdir. Beynəlxalq əməkdaşlığın başlanğıcı kimi dəyərləndirilən Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən olan TANAP-ın, həmçinin Azərbaycan-Türkiyə birliyinin növbəti təzahürü olan "Star" neft emal zavodunun istifadəyə verilməsi, ən əsası 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması SOCAR-ın beynəlxalq nüfuzunun təqdimatında əhəmiyyətli rol oynayır. SOCAR, eyni zamanda, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə təsdiqlənən Dövlət proqramlarına uyğun olaraq paytaxt və bölgələrdə mühüm sosial layihələr həyata keçirir. SOCAR-ın Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində məktəb tikintisində, həmçinin Dövlət Proqramlarına uyğun olaraq digər infrastruktur layihələrinin gerçəkləşdirilməsində öz payı var. Bu şəxslərin yalnız fəaliyyətlərinin deyil ailə üzvlərinə də böhtan atılması artıq onların hansı məqsədi güddüklərini ortaya qoyur: Dövlətə, xalqa xidmət edən və əməli fəaliyyəti ilə Prezidentə sadiqliklərini nümayiş etdirən şəxsləri gözdən salmaq və ictimai fikirdə mənfi rəy yaratmaq.

Uğurlarımıza və onlara öz töhfələrini verən məmurların uğurlu addımlarına diqqət yetirməklə bu ümumiləşdirməni qeyd edə bilərik ki, xaricdəki ünsürlər və daxildəki əlaltıları hakimiyyətin əsaslarını laxlatmaq və Prezidentin ətrafındakı sadiq insanları hədəfə almaqla onları gözdən salmaq, beləliklə də Prezidentin komandasına xətər yetirməyi düşünürlər. Amma unudurlar ki, həqiqətə həqiqət gözü ilə baxan xalq reallıqların təbliğatçısı olmaqla yanaşı hər kəsin kimliyini, hansı məqsədlər uğrunda mübarizə apardığını daha yaxşı bilir. Xaricdəki iaşə müxalifətinin və onların daxildəki dəstəkçilərinin əməlləri 100 faiz dələduzluq və fırıldaqçılıdır.

***- Hüquqi dövlətdə yaşayırıq. Cəmiyyəti idarə edən qanunlar hər kəsdən eyni məsuliyyəti tələb edir. Qanunsuz əməllərə görə əlillərdən sui-istifadə edilməsini necə dəyərləndirirsiniz?***

- Əlillərə diqqət və qayğı dövlət siyasətinin əsas tərkib hissəsidir. Milli Məclisdə bu kateqoriyadan olan insanların sosial müdafiəsinin gücləndirilməsi məsələsini dəfələrlə müzakirəyə çıxaran bir millət vəkili olaraq deyə bilərəm ki, dövlətin artan maliyyə imkanlarının ünvanlandığı qruplar sırasında onlar əsas yer tutur. Bu günlərdə SOSAR-ın Təhlükəsizlik İdarəsinin əməkdaşları ilə bir qrup şəxs arasında baş verən hadisə bir çox məqamlara aydınlıq gətirdi. Belə ki, aparılan araşdırmalar bu ssenarinin müəlliflərinin kimliyinə bir daha işıq saldı. Məlum oldu ki, SOCAR-ın əməkdaşları əlillərə qarşı heç bir zorakılıq tətbiq etməyib, onlar öz vəzifələrini qanun çərçivəsində həyata keçiriblər. İctimai fikrin çaşdırılmasına, ən əsası ölkə iqtisadiyyatının inkişafına davamlı töhfələr verən SOCAR-ın nüfuzuna xələl gətirilməsinə yönələn bu ssenari də yuxarıda qeyd etdiyimiz qarayaxma kapaniyalarının bir tərkib hissəsidir. Araşdırmalar məsələnin əsl mahiyyətini açıqladı: Boru kəmərinin təhlükəsizlik zonasına aid olan torpaq sahəsini zəbt etməyə cəhd göstərən bir qrup şəxs əlillərdən sui-istifadə edərək, onları qanunlara itaətsizlik göstərməyə, dövlət orqanlarına qarşı təxribata çağırmağa sövq ediblər. Əslində qanunsuz tikinti yerinə çağırılan əlillərin həmin tikinti ilə heç bir əlaqələri olmayıb. Əlillərdən öz çirkin niyyətlərini həyata keçirmək üçün bir vasitə kimi bəhrələnmək mənəviyyatsızlıq, cılızlıq, insani keyfiyyətləri itirməkdir.

Ardı Səh. 6

# Uğurlarımızı həzm etməyən ünsürlər inkarçılıqla özlərinə qarşı ictimai qınağı daha da gücləndirirlər

Əvvəli Səh. 5

Azərbaycan hüquqi, demokratik dövlətdir. Ölkəmiz qanunlarla idarə olunur. Hər bir sahənin inkişafına xidmət edən qanunlarımızın mövcudluğu ümumilikdə ölkənin hərtərəfli inkişafına xidmət edir. Qanunlara riayət etmək kimliyindən, siyasi əqidəsindən və mənsubiyyətindən asıl olmayaraq hər kəsin vətəndaşlıq borcudur. Hər kəs qanun qarşısında eyni məsuliyyəti daşıyır. Milli Konstitusiyamızda əksini tapan maddələrin üzdə iki hissəsi insan hüquq və azadlıqlarının təmin olunmasında xidmət edir. Eyni zamanda, Konstitusiyanın qəbulundan ötən 24 ildə sənədə 3 dəfə əlavə və dəyişikliklərin edilməsi məqsədilə ümumxalq səsverməsinin keçirilməsi də dövlətin siyasətində insan amilinə verilən dəyəri nümayiş etdirir. Qanunvericilik aktlarında əlilliyi olan şəxslərin sosial hüquqlarının müdafiəsi məsələsi də mühüm yer tutur. Bu kateqoriyadan olanlara böyük imtiyazların verildiyi inkaredilməzdir. Müharibə əlillərinin, şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması diqqət mərkəzindəndir. Diqqət yetirsək, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən ilk addım məhz əlillərə, şəhid ailələrinə diqqət və qayğıdan başlandı. Ümumiyyətlə, ölkəmizdə əmək pensiyası alanların 27 faizdən çoxu əlilliyə görə əmək pensiyası alanlardır. Statistikaya əsasən, əlil pensiyaçıların 3,6 faizi müharibə əlilləridir ki, onların da bir hissəsini Qarabağ müharibəsi əlilləri təşkil edir. Cari ildə Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə 800 mənzil verilməsi nəzərdə tutulub. 2019-cu ilin ötən dövründə bu kateqoriyadan olan şəxslərə 174 mənzil təqdim edilib.

Müharibədən əziyyət çəkən insanların sosial müdafiəsinin gücləndirilməsi Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas tərkib hissəsidir. Mehriban xanım Əliyeva mütəmadi olaraq onlarla görüşlər keçirir, onları narahat edən məsələlərlə yaxından tanış olur, həlli istiqamətində göstərişlər verir. Mənzil şəraitlərinin yaxşılaşdırılması, məşğulluqlarının təmin edilməsi yönümündə davamıl tədbirlər həyata keçirilir.

Bunları inkar etmək siyasi korluqdan başqa birş şey deyil. Təəssüflər olsun ki, dağıdıcı müxalifət adını özləri üçün bir qəhrəmanlıq kimi qəbul edən ünsürlər əlillərdən öz məkrli niyyətlərini həyata keçirmək üçün bir vasitə kimi istifadə etməyə çalışır, dövlətin onlara göstərdiyi diqqət və qayğını qara rəngdə təqdim etmək istəyir. Amma unudurlar ki, yalanın həqiqət üzərində qələbəsi qeyri-mümkündür. Bütün reallıqların içərisində olan, ən əsası daim bu diqqət və qayğını öz üzərində hiss edən xalqımız belə ünsürlərə "yox" cavablarını dəfələrlə bildirib, belə çaşdırıcı təbliğatın əsassızlığını onlara sərt münasibətləri ilə çatdırıblar. Vətəndaşlıq təəssübkeşliyi dövlətin maraqlarının qorunmasında əsasdır. Təəssüflər olsun ki, xarici antiazərbaycan qüvvələrin əlində oyuncağa çevrilən bu ünsürlər üçün vicdan, vətəndaşlıq təəssübkeşliyi kimi anlayışlar yaddır.

***- Siyavuş müəllim, bu il, eyni zamanda, ölkəmizdə bələdiyyə seçkiləri ilidir. Seçki ilə bağlı bu ünsürlərin apardığı təbliğatı necə qiymətləndirirsiniz?***

- Azərbaycan zəngin seçki təcrübəsinə malikdir. 2003-cü ildə Azərbaycan hökuməti ilə ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun və Avropa Şurası Venesiya Komissiyasının birgə rəyi əsasında qəbul olunan Seçki Məcəlləsi ölkəmizdə prezident, parlament, bələdiyyə seçkilərinin, eyni zamanda, ümumxalq səsverməsinin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsini təmin edir. Dövlətimizin daim yeniliyə, təkmilləşməyə meyilli olması qəbul olunan qanunların da zamanın tələbinə uyğun yeniləşməsində özünü qabarıq şəkildə büruzə verir. Bu baxımdan Seçki Məcəlləsinə mütəmadi olaraq əlavə və dəyişikliklər edilir.

Ölkədə fəaliyyət göstərən bütün siyasi partiyalara seçkilərdə iştirak edib, sosial bazalarından və nüfuzlarından istifadə edərək qələbələrini təmin etmək üçün hər cür şərait yaradılıb. Amma etiraf edək ki, bu gün də dağıdıcı ünsürlər ənənələrinə sadiqlik nümayiş etdirərək Azərbaycanın demokratik inkişafına kölgə salmaq üçün mümcimlik etməklə məşğuldurlar. Hadisələrə ən böyük dəyəri zaman özü verir. Seçkilərin hər bir mərhələsinin demokratiyanın tələblərinə uyğun keçirilməsi üçün lazımi addımlar atılır. Məğlubiyyətlərinin səbəbini özlərində deyil, hakimiyyətdə axtaran dağıdıcı ünsürlər həmişə olduğu kimi, bu gün ictimai qınaqla üz-üzədirlər. İctimai qınağın ən böyük cəza olduğunu dərk etsələr, düşünürəm ki, özlərində cəsarət tapıb siyasi meydanı tərk edər, yerlərini bu günümüz üçün gərəkli olan konstruktiv müxalifətə verərlər. Müxalifətçiliyi dövlətə, xalqa zidd addımların atılmasında görməyin özü siyasi savdsızlığın göstəricisidir. Dövlətimizin başçısı İlham Əliyevin hər zaman qeyd etdiyi kimi, bu qüvvələrin siyasi meydanı iqtidarın gördüyü işlərin fonunda daralıb.

# Ermənilərin təmir bəhanəsi ilə "Yuxarı Gövhər ağa" məscidinə zərər vurması onların özününkiləşdirmə siyasətini bir daha sübut edir

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Trend-in suallarını cavablandırıb:*

***- Mübariz müəllim, təmir-bərpa işləri adı altında ermənilər Şuşadakı "Yuxarı Gövhər ağa" məscidinin daxili interyerində ciddi dəyişikliklər ediblər. Bunu son günlər məscidin mediada yayılmış şəkilləri də təsdiqləyir. Açıq-aydın görünür ki, bərpa adı altında tariximiz saxtalaşdırılır. Belə halların qarşısını almaq üçün hansı tədbirlər görülür?***




- Ermənistanın Azərbaycana qarşı ərazi iddiası, onun işğalçı müharibə yolu ilə apardığı təcavüzkar siyasəti illərdir davam edir. Ermənilərin torpaqlarımıza təcavüzü nəticəsində yüzminlərlə soydaşımız qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum edilib. Azərbaycanın tarixi abidələrinə münasibətdə də erməni vandalizmi özünü göstərir. Ermənilər işğal altında olan ərazilərimizdə yüzlərlə tarixi-dini abidəmizi məhv ediblər. Onlar bu yolla bizim minilliklər boyu yaşadığımız torpaqlardan həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı silmək istəyirlər.

Onu da deyim ki, işğal altındakı torpaqlarımızda müəyyənləşdirdiyimiz tarixi-dini abidələrin sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si isə ziyarətgahdır. Bu mədəniyyət nümunələri təkcə Azərbaycan xalqına deyil, bütövlükdə bəşəriyyətə aiddir. Bu baxımdan xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalmış tarix və mədəniyyət abidələrinin mühafizəsi həm də beynəlxalq əhəmiyyət kəsb edən məsələdir. Bu, təkcə Azərbaycana yaxud İslam mədəniyyətinə deyil, bəşər mədəniyyətinə qarşı təcavüzdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu günlərdə Rusiyanın Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasındakı çıxışı zamanı Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini, etnik təmizləmə siyasəti apardığını, beynəlxalq hüquq normalarına məhəl qoyulmadığını bir daha dünya ictimaiyyətinə çatdırdı.

"Yuxarı Gövhər ağa" məscidi üzərində yerləşən və Azərbaycan dilində yazılmış lövhənin ermənilər tərəfindən sökülməsi, əvəzində erməni dilində "Tarixi-mədəni abidə, Yuxarı məscid, 1883, dövlət tərəfindən qorunur" sözlərini əks etdirən lövhə vurulması ilə qane olmayan ermənilər məscidin görünüşündə də dəyişiklik etməkdən çəkinməyiblər. Bu, Azərbaycan xalqının mirasına qarşı yönəldilmiş vandallıq hərəkətlərinin davamı kimi başa düşülməlidir.

Erməni işğalçılarının özbaşınalığı nəticəsində tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, habelə "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasına ziddir. Buna baxmayaraq, işğalçılar yurd yerlərimizdə qanunsuz apardıqları arxeoloji qazıntı işlərini davam etdirir, tarixi abidələrimizi, məscidləri dağıdır, tarixi-mədəni irsimizi isə saxtalaşdırırlar.

Azərbaycan torpaqlarında ermənilər tərəfindən nəinki İslam abidələri, eləcə də Qafqaz Albaniyasına aid olan abidələr təcavüzə məruz qalır. Ermənilər işğal olunmuş torpaqlarımızda bütün xristian abidələrinə qarşı da saxtalaşdırma, mənimsəmə aktları həyata keçirməkdə davam edirlər.

Biz bu məsələ ilə bağlı dəfələrlə beynəlxalq təşkilatlara müraciət ünvanlamışıq. Tələb etmişik ki, Ermənistan vandalizm əməllərinə görə birbaşa beynəlxalq hüquqi məsuliyyətə cəlb olunmalı, bu vəhşiliyə hüquqi qiymət verilməlidir. Biz beynəlxalq ictimaiyyətdən işğalçı Ermənistana layiq olduğu münasibəti göstərməsini tələb edirik. Bu istiqamətdə mümkün tədbirləri görürük.

***- Təmir işlərinin İran şirkəti tərəfindən aparıldığı bildirilir. Bununla bağlı hansısa araşdırma aparılıbmı?***

- Bizdə olan məlumata əsasən,"bərpa" işlərini İranın "Part Saman Cahan Co" şirkəti həyata keçirir. Hətta erməni tərəfi bildirib ki, "bərpa" üçün İran şirkətinin seçilməsi təsadüfi deyil. Çünki guya bu məscidin İran tarixi və mədəniyyəti ilə sıx bağlılığı var. Ümumiyyətlə, işğal altında qalmış Azərbaycan xalqına məxsus İslam inciləri məqsədli şəkildə İran mədəni irsinə məxsub abidələr kimi qələmə verilir. Məsələn, məlum olduğu kimi, İrəvandakı Göy məscidin Azərbaycana məxsus milli memarlıq üslubu dəyişdirilərək iranlaşdırılıb. Halbuki işğal altında qalmış bütün tarixi-mədəni abidələr Azərbaycan xalqına, onun mədəni irsinə məxsusudur. Tarixdən hamıya məlumdur ki, "Yuxarı Gövhər ağa" məscidi 1883-1884-cü illərdə İbrahimxəlil xanın qızı Gövhər ağanın tapşırığı ilə memar Kərbəlayı Səfixan Sultanhüseyn oğlu Qarabagi tərəfindən inşa edilib. İndiki məscidin yerində hələ Pənahəli xanın dövründə qarğı və qamışdan bir məscid tikilmişdi. Pənahəli xanın tikdirdiyi qarğı məscid 1768-ci ildə İbrahimxəlil xan tərəfindən daşla əvəz edilmişdi. Həmin məscid də minarəsiz, kasıb görünüşə malik idi. Görünür ki, elə məscidin bu görünüşü Gövhər ağanı qane etməyib və buna görə həmin məscidin yerində müasir dövrümüzə qədər gəlib çatmış "Yuxarı Gövhər ağa" məscidi kimi tanınan həmin bina inşa edilmişdi.

Erməni mətbuatının yazdığına görə, "Yuxarı Gövhər ağa" məscidinin "bərpası layihəsi" qondarma Artsax hökuməti, Ermənistandakı Tarixi Şərq Mirasının Dirçəlişi Fondu və İran-Ermənistan Dostluq Assosiasiyasının maddi və mənəvi dəstəyi ilə icra olunur. Ümumi restavrasiya, incə işləmələr və çini işlər iranlı incəsənət ustaları tərəfindən həyata keçirilir.

Onu da deyim ki, "Part Saman Cahan Co" şirkətinin rəhbəri Səid Nəhəvəndinin Ermənistanda memarlıq ixtisası üzrə ali təhsil aldığı bildirilir. Məncə, təkcə bu fakt çox şeyi deyir.

***- İran tərəfinə bu barədə hansısa formada müraciət edilibmi?***

- Ermənilərin təmir-bərpa işləri bəhanəsi ilə "Yuxarı Gövhər ağa" məscidinin daxili interyerində ciddi dəyişiklik etməsi, tarixi abidənin bədii-estetik dəyərlərinə ciddi zərər vurması, guya bu abidənin Azərbaycan xalqına mənsub olmaması barədə iddialar irəli sürülməsi onların "özgələşdirmə və özününkiləşdirmə" siyasətini bir daha sübut edir. Qarşı tərəfin beynəlxalq humanitar hüququn bütün norma və prinsiplərini kobudcasına pozaraq məsciddə qanunsuz "təmir-bərpa işləri" aparması və hansısa xarici şirkəti cəlb etməsi Azərbaycanla yanaşı, bütün İslam dünyasına, dünya mədəniyyətinə qarşı qəsd deməkdir. Bu baxımdan qonşu, dost ölkə olan İranın hansısa şirkətinin bu prosesdə iştirakı bizi çox təəssüfləndirir. Biz bu barədə İranın müvafiq dövlət qurumlarının rəhbərlərinə, eləcə də ölkəmizdəki səfirliyinə dəfələrlə mövqeyimizi bildirmişik. Qeyd etmişik ki, ermənilərin işğalçılıq siyasəti nəticəsində İslam abidələrinin məhv edilməsi və ya tarixinin saxtalaşdırılması bütün İslam dünyasına qarşı yönəlmiş mənəvi terrordur. Hansısa müsəlman ölkəsinin və ya onun vətəndaşının bu mənəvi terrorda iştirakı qəbuledilməzdir. Üstəlik, bütün İslam dünyasının bir araya gəldiyi İslam Əməkdaşlıq Təşkilatı Ermənistanı işğalçı kimi tanıyıb. Bu faktdan sonra hansısa müsəlman ölkəsinin belə bir məsələdə ermənilərlə əməkdaşlığı nə dinimizin, nə beynəlxalq hüququn prinsiplərinə uyğundur. Ümid edirik ki, dost, qardaş İran bu ölkədə yaşayan ermənilərin İran-Azərbaycan münasibətlərinə xələl gətirmək niyyətinin qarşısını alacaqdır.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilib



***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyasının fəaliyyəti barədə müşavirə keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq deyib ki, dövlət sirri təşkil edən məlumatların məxfiliyinin qorunması bu gün qarşıda duran əsas vəzifələrdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 17 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın yaradılması da bu sahədə fəaliyyətin gücləndirilməsi və qarşıya qoyulan vəzifələrin icrasına xidmət edir. Komissiyanın tərkibini diqqətə çatdıran Ali Məclisin Sədri bildirib ki, dövlət sirrinin mühafizəsi sahəsində aid təşkilatların birgə fəaliyyəti bundan sonra əsas vəzifə kimi müəyyənləşdirilir.

Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Nurlan Pənahov muxtar respublikada dövlət sirrinin mühafizəsi sahəsində görülən işlər, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini - Qanunçuluq və hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov isə dövlət sirrinin mühafizəsi üzrə fəaliyyəti tənzimləyən qanunvericilik barədə məlumat veriblər.

Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar naziri Rövşən Məmmədov dövlət orqanları arasında elektron sənəd dövriyyəsinin təşkili və təhlükəsizliyin təmin olunması sahəsində görülən işləri diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: Təhlükəsizliyin təmin edilməsi hər bir dövlətin mövcudluğunun əsas şərtlərindəndir. Dövlətin təhlükəsizliyinin əsasında isə dövlət sirri təşkil edən məlumatların mühafizəsi, məxfiləşdirilməsi və qanunauyğun istifadəsi dayanır. Dövlət sirri - hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması dövlətin təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın yaradılmasında əsas məqsəd də dövlət sirri haqqında qanunvericiliyin muxtar respublikada həyata keçirilməsini təmin etməkdən, bu sahədə normativ hüquqi aktların və metodik sənədlərin işlənib hazırlanması və yerinə yetirilməsi üçün dövlət orqanlarının fəaliyyətini əlaqələndirməkdən ibarətdir. Bu vəzifələrin həyata keçirilməsi üçün İdarələrarası Komissiya tərəfindən bir sıra işlər görülməlidir.

Ali Məclisin Sədri Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın fəaliyyət istiqamətləri barədə tapşırıqlar verərək deyib: Komissiya dövlət sirri təşkil edən məlumatların qeyri-qanuni yayılmasının qarşısını almalı, dövlətin təhlükəsizliyinə ziyan vuran belə hal baş verdikdə fakt üzrə materiallara baxmalı və rəy verməlidir. Komissiyada təmsil olunan orqanlar əsasən dövlət sirrinə aid edilən məlumatlar barəsində Sərəncam vermək səlahiyyətlərinə malikdirlər. Ona görə də həm komissiyada təmsil olunan, həm də bu səlahiyyətlərə malik digər orqanlar dövlət sirrinə aid edilən məlumatlar siyahısına uyğun olaraq məxfiləşdirilməli məlumatların geniş siyahısını tərtib etməli və bu siyahılara daxil edilmiş məlumatların məxfilik dərəcələrini müəyyənləşdirməlidirlər.



Ali Məclis Aparatının müvafiq şöbəsi dövlət sirrinə aid edilən məlumatların siyahısını və digər normativ aktları komissiyada təmsil olunan orqanlarla birlikdə hazırlayıb təsdiq edilmək üçün Ali Məclis Sədrinə təqdim etməlidir. Komissiya dövlət sirri təşkil edən məlumatların qanunla müəyyən edilmiş məxfilik müddətlərinə aidiyyəti orqanlarda əməl edilməsini nəzarətdə saxlamalı, zərurət olduqda həmin müddətlərin uzadılması məsələsinə baxılmalıdır.

Ali Məclisin Sədri deyib: Muxtar respublikada dövlət sirrinin mühafizəsi sahəsində səlahiyyətlər Dövlət Təhlükəsizliyi Xidmətinə verilmişdir. Xidmət əsasnaməsi ilə müəyyən edilmiş vəzifələrlə yanaşı, həm də aidiyyəti orqanlarda məxfiləşdirilməli məlumatların siyahılarının yenilənməsini nəzarətdə saxlamalı, onların məxfilik dərəcəsinə uyğunluğunu vaxtaşırı, azı 5 ildə bir dəfə yoxlamalıdır. Dövlət orqanlarında, müəssisə, idarə və təşkilatlarda dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələrin fəaliyyətinə metodiki köməklik göstərilməli, dövlət sirri təşkil edən məlumatların qorunmasına dair tələblərə əməl edilməsi nəzarətdə saxlanılmalıdır. Elektron sənəd dövriyyəsi və mübadiləsi bu sahədə dövlət sirri təşkil edən məlumatların mühafizəsi məsələsini zərurətə çevirmişdir. Ona görə də Dövlət Təhlükəsizliyi Xidməti Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birlikdə tərkibində dövlət sirri təşkil edən məlumatlar olan informasiya sistemlərinin ekspertizasını aparmalı, informasiyanın mühafizəsinə, məxfilik rejiminə və texniki kəşfiyyat fəaliyyətinə qarşı tədbirlər görməli, lisenziyalı proqram təminatından istifadə olunmalı, texniki vasitələrin məlumat sızmasından qorunmasını, habelə onlardan məlumat çıxarılması üçün istifadə oluna bilən elektron vasitələrin aşkarlanması və zərərsizləşdirilməsini təmin etməlidirlər.

Qeyd olunub ki, əldə edilməsi qanunvericiliklə məhdudlaşdırılan və dövlət sirri hesab edilən informasiyaların kütləvi informasiya vasitələrində, internet saytlarında və sosial şəbəkələrdə yayılmaması üçün ciddi işlər görülməlidir. Hər hansı dövlət orqanı üzrə məxfiləşməli məlumat dövlət sirrinə aid edilən məlumatlar siyahısında dəyişiklik edilməsi zərurəti yaratdıqda Komissiya tərəfindən bu məsələyə baxılmalı və müvafiq rəy verilməlidir. Muxtar respublikanın dövlət arxivlərində və ya dövlət orqanlarına məxsus arxivlərdə mühafizə edilən dövlət sirri təşkil edən məlumat daşıyıcılarının məxfilik vəziyyətinə nəzarət olunmalıdır.

Ali Məclisin Sədri deyib: Müəssisə, idarə və təşkilatlarda vəzifəli şəxslərin dövlət sirri ilə işləməyə buraxılması qaydalarına ciddi riayət edilməli, dövlət sirrinin mühafizəsi işi daim yeni təhdidlərə qarşı dayanıqlı olmalı, muxtar respublikada dövlət sirrinin mühafizəsi sisteminin təkmilləşdirilməsi daim diqqətdə saxlanılmalıdır. Komissiya dövlət sirrinə aid edilmiş məlumatların məxfiliyinin açılması haqqında məsələlərə baxmalı, qanunvericiliyin tələblərinə uyğun rəy verməlidir. Komissiyanın əsas funksiyalarından biri də dövlət sirri təşkil edən məlumat daşıyıcılarının başqa dövlət orqanları, müəssisə, idarə və təşkilatlarına verilməsini təşkil etməkdir. Dövlət sirri təşkil edən məlumata malik orqan ləğv edildikdə, mülkiyyət növü dəyişdikdə və ya orqanın dövlət sirri təşkil edən məlumatlardan istifadə etməklə görülən işlərə son qoyulduqda həmin məlumatların mühafizəsi üçün tədbirlər görülməli, Komissiya dövlət sirri təşkil edən məlumatın başqa dövlət orqanına verilməsi üçün qərar verməlidir.

Müşavirədə tapşırılıb ki, İdarələrarası Komissiyanın qərarlarının icrası dövlət orqanları, müəssisə, idarə və təşkilatları üçün məcburidir. Ona görə də komissiyanın üzvləri səlahiyyətləri daxilində qərarların icrasına nəzarət etməlidirlər. Komissiyada təmsil olunan orqanların rəhbərləri dövlət sirrinin mühafizəsi işini təşkil etmək üçün məsul şəxsləri müəyyənləşdirməli və onlar dövlət sirrinin mühafizəsi ilə bağlı maarifləndirilməlidirlər. Eyni zamanda, dövlət sirrinin mühafizəsi sahəsində fəaliyyət göstərən əməkdaşların bilik və peşəkarlıq səviyyəsi daim artırılmalı, komissiya tərəfindən müvafiq seminarlar keçirilməli və vəzifələr izah olunmalıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq mühafizə orqanları ilə iş şöbəsi Dövlət Təhlükəsizliyi Xidməti ilə birlikdə dövlət sirrinin mühafizəsi ilə bağlı qəbul olunmuş normativ hüquqi aktların aid təşkilatlara verilməsini təmin etməlidir.

Ali Məclisin Sədri müşavirəyə yekun vuraraq deyib ki, dövlət sirrinin mühafizəsi ilə bağlı müəyyənləşdirilən vəzifələrin icrasında komissiya üzvləri məsuliyyətlərini artırmalı, verilən tapşırıqlar diqqətdə saxlanmalı və fəaliyyət bu istiqamətdə qurulmalıdır.

## “Kommersant” qəzeti: Prezident Vladimir Putin Yerevana səfərindən üç gün sonra Prezident İlham Əliyevlə görüşməyi zəruri hesab edib



“Kommersant” qəzetində Azərbaycanın Dağlıq Qarabağ regionunda baş verən son hadisələrə həsr edilmiş “Burada iki nöqtə ola bilməz” sərlövhəli məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan-Azərbaycan münaqişəsi zonasında vəziyyətin kəskinləşməsi qeyd edilir. Prezident İlham Əliyev “Valday” klubunun iclasındakı çıxışında Nikol Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” sözlərinə cavab olaraq deyib: “Qarabağ Azərbaycandır və nida işarəsi!”. RF Xarici İşlər naziri Sergey Lavrov Nikol Paşinyanın bu sözlərini kəskin tənqid edəndən sonra Ermənistan Xarici İşlər Nazirliyində xəbərdarlıq ediblər ki, vasitəçilər “birtərəfli qiymətləndirmələr”dən çəkinməlidirlər.

Məqalə müəlliflərinin fikrincə, Dağlıq Qarabağ münaqişəsi zonasında yeni eskalasiyanın başlanmasına səbəb Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 5-də Stepanakertə səfəri zamanı söylədiyi və böyük hay-küy doğurmuş “Arsax (Qarabağ) Ermənistandır və nöqtə” sözləri olub.

Qəzet yazır ki, Paşinyan qondarma “Dağlıq Qarabağ Respublikası”nın paytaxtında 1992-ci ildə həlak olmuş “Qarabağ müharibəsi qəhrəmanı”, “Azadlıq ordusu”nu yaradanlardan biri olmuş Leonid Azqaldyanın sözlərini təkrar edib. Ermənistan rəhbərliyinin nümayəndələri son vaxtlara qədər Leonid Azqaldyandan sitat gətirməməyə üstünlük verir, BMT Təhlükəsizlik Şurasının 90-cı illərin əvvəlində Qarabağa dair qəbul etdiyi dörd qətnaməyə etinasızlığa görə öz opponentləri tərəfindən təqsirləndirilmək üçün əsas verməməyə çalışırdılar.

Materialda Prezident Vladimir Putinin Yerevana səfərinin yekunlarını və Avrasiya Ali İqtisadi Şurasının iştirakçıları olan dövlət başçılarının görüşündə iştirakı şərh edilərək, erməni politoloqu Beniamin Matevosyanın sözləri sitat gətirilir. Matevosyan Ermənistan KİV-lərinə müsahibəsində deyib: “Nikol Paşinyanın Vladimir Putinlə “Dvin” mehmanxanasının restoranında, habelə Yerevanda, Rusiya Prezidentinin Ermənistanın ikinci prezidenti Robert Koçaryanın arvadı Bella Koçaryan ilə görüşdən sonra gəldiyi Zvartnos aeroportunda on dəqiqəlik görüşləri yalnız protokol xarakterli foto və videoçəkilişlərlə məhdudlaşıb. Aşkar görünürdü ki, yığılıb qalmış problemlər müzakirə edilməyib”.

Digər tərəfdən, məqalədə qeyd edildiyi kimi, Prezident Vladimir Putin Yerevana səfərindən üç gün sonra Prezident İlham Əliyevlə görüşməyi zəruri hesab edib. Putin Əliyevi “Valday” Beynəlxalq Diskussiya Klubunun iclasına dəvət edib. Soçidə Yerevan görüşünün iştirakçılarından Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev də vardı.

Prezident İlham Əliyev Valday forumunda çıxışından əvvəl Prezident Vladimir Putin ilə görüşüb. Prezident Vladimir Putin deyib: “şəxsi görüşlərimizdə, əlaqələrimizdə fasilə olmasına baxmayaraq ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edir. Ticari-iqtisadi əlaqələr möhkəmlənir, keçən il əmtəə dövriyyəsinin həcmi 2,5 milyard dollar olub”.

Qəzet “Valday” klubunun Soçidə keçirilən iclasının yekun plenar sessiyasında Prezident İlham Əliyev bəyanatını bu görüşün mühüm hadisəsi hesab edir: “Çıxışını Qarabağ münaqişəsinin tənzimlənməsi mövzusuna həsr etmiş cənab Əliyev onu Nikol Paşinyan ilə sərt polemikaya çevirib. O, emosional çıxışında Paşinyanın “Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə” sözlərini şərh edərək onları “yalan” adlandırıb və deyib: “Qarabağ Azərbaycandır və nida işarəsi!”.

# Respublikamızda həyata keçirilən siyasət Azərbaycan xalqına və dövlətinə xidmət edir

## YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimovun yap.org.az-a müsahibəsi

***- Eldar müəllim, bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biri kimi tanınır. Sizcə, bu inkişafın əsasında hansı amillər dayanır?***

- Hər bir ölkənin iqtisadiyyatında və cəmiyyətində daim dəyişikliklər baş verir. Bu dəyişikliklər cəmiyyətlərə müxtəlif formalarda təsir edir. Azərbaycan Respublikasında da bu formada dəyişikliklər baş vermişdir. Lakin Ümummilli Lider Heydər Əliyevin istər SSRİ dövründə Azərbaycan Respublikasına rəhbərlik etdiyi birinci hakimiyyəti (1969-1982-ci illər), istərsə də 1993-2003-cü illərdə müstəqil respublikamızına rəhbəri kimi Prezidentliyi dövründə və 2003-cü ildən indiyə kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi dövründə xalqımız həmişə yalnız Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşmasına, Azərbaycan cəmiyyətinin və dövlətinin nüfuzunun daim yüksəlməsinə yönəlmiş ardıcıl, əhatəli və köklü dəyişiklərin şahidi olmuşdur.

Ulu Öndərimiz Heydər Əliyev 1969-1982-ci illərdə SSRİ tərkibində olan Azərbaycana rəhbərlik etdiyi dövrdə keçmiş İttifaq miqyasında əsasən geridə qalmış, sənaye potensialı zəif, kənd təsərrüfatı primitiv xarakterizə olunan respublikanı İttifaqın qabaqcıl, güclü sənaye (İttifaqda yeganə olan Bakı soyuducular zavodu, Bakı yeni neftayırma zavodu və digər iri sənaye müəssisələri tikilib istifadəyə verildi) və aqrar-sənaye kompleksinə malik bir diyarına çevirdi. Azərbaycan Respublikasına ikinci dəfə rəhbərliyə başlayanda isə yenicə suverenlik əldə etmiş ölkəmiz bir tərəfdən mənfur qonşumuz Ermənistan tərəfindən Qarabağa müharibəsinə cəlb edilmiş, digər tərəfdən isə əvvəlki rəhbərliyin səriştəsizliyi ucbatından cəmiyyətdə xaos, hərc-mərclik, iqtisadiyyatda görünməmiş tənəzzül hökm sürürdü. Belə acınacaqlı vəziyyətin mövcud olmasına baxmayaraq Heydər Əliyevin Azərbaycan xalqının və dövlətinin mənafe naminə vəziyyəti sabitləşdirməyə və inkişafa nail oldu. Onun təşəbbüsü və birbaşa iştirakı ilə Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaribəsində atəşkəs elan olundu, “Əsrin müqaviləsi” imzalandı, müstəqil Azərbaycan Respublikasının Konstitusiyası hazırlanıb qəbul edildi və bazar iqtisadiyyatına əsaslanan iqtisadi islahatlara start verildi. Həyata keçirilən bu tədbirlər bir-biri ilə əlaqədar olmaqla yanaşı Azərbaycan Respublikasının inkişafının təməlini qoydu. Belə ki, müharibədə atəşkəs əldə olunmasaydı əsrin müqaviləsi də uğurla həyata keçirilə bilməzdi. Konstitusiyanın qəbulu isə müstəqil və suverən Azərbaycan Respublikasında yeni ictimai-siyasi və iqtisadi münasibətlərin formalaşdırılmasının hüquqi əsasını müəyyən etdi və ölkəmiz bazar iqtisadiyya-



tının tələblərinə uyğun iqtisadi islahatları uğurla həyata keçirdi.

Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı bu uzaqgörən siyasəti 2003-cü ildən Azərbaycan Respublikasına rəhbərlik edən hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən dünyanın siyasi və iqtisadi həyatında baş verən çağırışlara uyğun daim təkmilləşdirilərək inkişaf etdirilmiş və uğurla həyata keçirilmişdir. Prezident İlham Əliyevin imzaladığı qanunlar, Fərman və sərəncamlar, Onun göstərişi ilə hazırlanan Dövlət proqramları məhz “Əsrin müqaviləsi”nin ölkəmizə gətirdiyi maliyyə vəsaitləri hesabına uğurla həyata keçirilir. Hazırda Azərbaycan Respublikası bölgədə əsas söz sahibinə çevrilmiş, qlobal layihələr yalnız onun iştirakı və razılığı ilə həyata keçirilir, ölkəmiz Avropanın enerji təminatında əsas ölkələrdən birinə çevrilmiş, gündən-günə gözəlləşən Bakı şəhəri müxtəlif sahələr üzrə beynəlxalq tədbirlərə ev sahibliyi edir.

Belə ki, 2018-cu ildə ölkəmizdə 80 milyard manat və ya əhalinin hər nəfərinə 8 min manatdan çoxa ümumi daxili məhsul istehsalı edilmişdir ki, bu da 2005-ci ilə nisbətən müvafiq olaraq 6,4 dəfə və 5,4 dəfə çoxdur. Keçən il 2005-ci ilə nisbətən sənaye məhsulu istehsalı 5,2 dəfə, kənd təsərrüfatı məhsulu istehsalı 3,9 dəfə, əsas kapitala yönəldilmiş vəsaitlər 3,0 dəfə, pərakəndə ticarət dövriyyəsi 8,2 dəfə artmışdır. Dövlət büdcəsi xərclərinin ümumi daxili məhsulda xüsusi çəkisi 17,1 faizdən 28,4 faizə yüksəlmişdir.

***- Həyata keçirilən siyasət əhalinin rifah halının yüksəlməsində özünü necə ifadə edir?***

- Bu illər ərzində iqtisadiyyatın davamlı və yüksək sürətlə artması əhalinin sosial vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına da öz müsbət təsirini göstərmişdir. 2005-ci ilə nisbətən 2018-ci ildə muzdla işləyənlərinə orta aylıq nominal əmək haqqı 4,4 dəfə, təyin olunmuş aylıq pensiyaların orta məbləği 7,8 dəfə, əhalinin gəlirləri 6,6 dəfə artmışdır. Keçən il dövlət tərəfindən 420799 nəfər işləməyən əhaliyə hər ay ödənilməklə sosial müavinətlər təyin edilmiş, 93043 nəfər əhaliyə isə birdəfəlik müavinətlər verilmişdir. Bundan başqa 62476 nəfər Azərbaycan Respublikası Prezidentinin təqaüdü ilə əhatə olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, göstərilən müavinət və yardımların bir nəfərə düşən məbləği də ildən ilə artır.

Möhtərəm Prezidentimiz İlham Əliyev dəfələrlə elan edib ki, dövlət siyasətinin mərkəzində Azərbaycan Respublikasının vətəndaşı dayanır. Bu, həqiqətən də belədir və biz bunun daim şahidi oluruq. Belə ki, Prezidentin imzaladığı rəsmi sənədlərə əsasən keçən il və bu il dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin əmək haqları, ölkədə sosial müavinətlər, təqaüdlər və digər sosial ödənişlər əhəmiyyətli dərəcədə artırılmışdır. Belə ardıcıl və yüksək həcmdə artım dünyanın heç bir ölkəsində müşahidə olunmur. Minimum əmək haqqının 250 manata, minimum pensiyanın isə 200 manata çatdırılması da ölkə vətəndaşlarına göstərilən dövlət qayğısının bariz nümunəsidir. İlkin məlumatlara görə 2020-ci ilin dövlət büdcəsində əmək haqlarının və pensiyalarına gələn ildə də əhəmiyyətli dərəcədə artırılması gözlənilir. Ümumilikdə isə gələn ilin büdcəsində respublikamızda ilk dəfə olaraq sosial sektora ayrılan vəsait büdcə xərclərinin 40 faizini təşkil edəcəkdir ki, bu da müstəqil və suveren bir dövlət kimi cəmi 28 il addımlayan istənilən ölkə üçün əlçatmaz bir zirvədir. Lakin, 1993-cü ildən respublikamızda həyata keçirilən siyasət sayəsində Azərbaycan Respublikası bu zirvəni fəth edir. Belə bir yüksək göstəriciyə yalnıza çox az sayda ölkələr yüz illər sərf etməklə nail olurlar. Bu da ölkəmizdə bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən daim təkmilləşdirilərək modernləşdirilən və uğurla həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində mümkün olmuşdur. Ölkəmizə daim yeni-yeni nailiyyətlər gətirən bu siyasət dərin islahatlar strategiyasının əsasını təşkil edən, elmi-texniki tərəqqi, yeni texnologiya və məhsulda öz əksini tapan innovasiyaların tətbiqində dövlət dəstəyinə geniş yer verilməsi ilə fərqlənir.

Bu məqsədlə son 15 ildə ölkə iqtisadiyyatına 231 milyard manat sərmayə qoyulmuş, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən indiyə kimi sahibkarlara 2,2 milyard manat güzəştli kreditlər verilmişdir. Bu sərmayələr nəticəsində ölkəmizdə dünya standartları səviyyəsində rəqabətə davamlı müxtəlif çeşiddə sənaye və kənd təsərrüfatı məhsullar istehsal edən sənaye və kənd təsərrüfatı obyektləri tikilib istifadəyə verilib.

Vətəndaşların rahatlığını hər şeydən üstün tutan ölkə Prezidenti bu sahəyə də

# Respublikamızda həyata keçirilən siyasət Azərbaycan xalqına və dövlətinə xidmət edir

## YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimovun yap.org.az-a müsahibəsi

xüsusi diqqət və qayğı göstərir. Bunun nəticəsidir ki, respublikamızda "Azərenerji" ASC tərəfindən elektrik enerjisi ilə təminat tam ödənilir, qazlaşdırmanın səviyyəsi 95 faizə çatıb, içməli su ilə təminat 38 şəhərdə tam həllini tapıb, 12 şəhərdə davam edir, Bakıda əhali fasiləsiz su ilə təminatı həll olunub. 2004-cü ildən indiyə kimi ümumilikdə 15 min km-dən çox asfalt yol salınıb, 2,2 milyon əhali yaşayan 1000-ə yaxın kəndin yol infrastrukturu yaxşılaşıb, yeni yollar salınıb, 5800 ailəyə yeni mənzillər verilib. Bu günə qədər 300 min məcburi köçkün yeni mənzillə təmin edilmişdir. Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 626 mənzil, hərbçilərə 400-ə yaxın mənzil verilib.

Əhalinin rahatlığının və təhlükəsizliyinin təmin edilməsi üçün hazırda ölkəmizdə keyfiyyətli ictimai nəqliyyat xidmətlərinin göstərilməsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilir. Bakı-Gəncə, Bakı-Sumqayıt şəhərlərinə işləyən sürət qatarlarına yeni rahat və yüksək standartlara cavab verən vaqonların qoşulması, Bakı metropolitenində və Bakı Nəqliyyat Agentliyinin xidmət etdiyi marşrutlarda xəttə kondisionerlə təmin edilmiş yeni qatarların və avtobusların buraxılması əhali tərəfindən böyük razılıqla qarşılanmışdır. Bu günlərdə Bakı şəhərində açılışı olmuş "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzində (HUB) yaradılan müasir nəqliyyat infrastrukturu insanların xidmətinə verilmişdir. Bu mərkəzlərin yaradılması davam edir və yaxın vaxtlarda Bakı Nəqliyyat Agentliyinin avtobus parkı daha rahat və müasir tələblərə cavab verən yeni avtobuslarla tam təmin ediləcəkdir.

Azərbaycan Respublikası vətəndaşlarının rahatlığının təmin edilməsi, onların bir çox qayğılarının şəffaf və çox az vaxt sərf etməklə həllinə nail olmaları üçün Azərbaycan brendi olan "ASAN" və digər formada sosial xidmətlər sistemi yaradılmışdır. Bu xidmətlərin yaradılması əhali tərəfindən böyük məmnunluqla qarşılanır və dövlətin öz vətəndaşına göstərdiyi yüksək diqqət və qayğı kimia dəyərləndirilir.

***- Hazırda ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi prosesi də uğurla həyata keçirilir. Belə ki, qeyri-neft sektorunun inkişafı istiqamətində böyük işlər görülür, yeni-yeni sənaye müəssisələri yaradılır.***

- Müasir dövrdə iqtisadiyyatın qeyri-neft sənaye sektorunun inkişafında sənaye və texnologiyalar parklarının yaradılması böyük əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq dəyəri 3,6 milyard dollar olan Sumqayıt, Balaxanı, Qaradağ, Gəncə, Mingəçevir, Pirallahı və digər Sənaye Parklarının və Neftçala, Masallı, Sabirabad və digər rayonlarda sənaye məhəllələrinin yaradılması qərara alınmış və onlardan bir çoxu artıq fəaliyyət göstərir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, Cənub Qaz dəhlizinin və Sumqayıt polipropilen zavodunun açılışı olmuş, Mingəçevirdə 750 nəfərin işlədiyi 2 böyük iplik fabriki artıq məhsul verməyə başlamışdır. Sumqayıtda karbamid zavodunun istifadəyə verilməsi respublikamızı azot gübrəsi idxalından azad edərək istehsal olunan məhsulun bir hissəsini xaricə satmaq imkanı yaratmışdır. Ölkəmizdə həyata keçirilən iqtisadi islahatların ən mühüm hədəflərindən biri idxal olunan əsas məhsulların yerli istehsalını təmin etməklə daxili tələbatı tam ödəmək və respublikamızı həmin məhsulları idxal edən ölkədən ixrac edən ölkəyə çevirməkdir. Bu da imkan verəcəkdir ki, on minlərlə insan daimi və yüksək maaşlı işlə təmin olunsun, daxili və xarici bazara yüksək keyfiyyətli, Azərbaycan brendi olan məhsullar çıxarılsın. Bu istiqamətdə işlər davam edir və hər il ölkəmizdə respublikamız üçün yeni olan məhsullar istehsalı üzrə fəaliyyət göstərən sənaye müəssisələrinin işə salınmasının şahidi oluruq. Ölkəmizin ixrac potensialını artırmaq, Azərbaycanda istehsal edilib markası ilə məhsullarımızın xarici ölkələrdə satışını təşkil etməyə dəstək vermək və xarici vətəndaşları respublikamızda istehsal olunan məhsullarla daha ətraflı tanış etmək üçünaa hazırda Belarusda, Çində, Ukraynada, Latviyada, Polşada Azərbaycan Ticarət evləri açılıb və onların əhatə dairəsi genişləndirilir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaq üçün qeyri-neft sektorunun və onun əsas sahələrindən biri olan aqrar sektoruna inkişafı prioritet istiqaməti kimi önə çəkildi. Dövlətin maliyyə dəstəyi ilə hazırda 30 rayonda 192 min hektar ərazidə ümumi dəyəri 1 milyard manatdan çox olan 45 aqroparkın yaradılması üzrə də böyük işlər görülür. Hazırda ölkəmizin 20 rayonunda 32 iri fermer təsərrüfatı fəaliyyət göstərir ki, bunlarda da məhsuldarlıq ölkə üzrə müvafiq göstəricilərdən bitkiçilikdə 2-3 dəfə, heyvandarlıqda isə 4-5 dəfə çoxdur.

Müstəqilliyinin ilk dövrlərində iqtisadiyyatın inkişafını təmin etmək üçün xarici investorlara böyük ehtiyacı olan ölkəmiz həyata keçirilən çox uğurlu iqtisadi siyasət sayəsində indi xarici ölkələrə investisiya qoyur. Hazırda Türkiyənin, Gürcüstanın, Ukraynanın, Rumıniyanın və digər ölkələrin bir çox müəssisələri Azərbaycanın sərmayəsi əsasında fəaliyyət göstərirlər. SOCAR-ın 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərində inşa etdiyi ildə 10 milyon ton xam neft emal gücünə malik USTARF zavodu 2019-cu ilin yanvar ayından tam gücü ilə fəaliyyət göstərir. 2007-2018-ci illərdə Azərbaycan Dövlət Neft Şirkəti Gürcüstan Respublikasının iqtisadiyyatına bir milyard dollardan çox sərmayə yatırıb.

Davamlı və dinamik inkişafla dayanaqlı iqtisadiyyatı təmin etmiş Azərbaycan modeli qloballaşan dünya iqtisadiyyatının çağırışlarına uyğun olaraq daim təkmilləşir və zamanın tələbinə cavab olaraq modernləşir. İqtisadiyyatın Azərbaycan modelinin başlıca xüsusiyyətindən biri də yalnız bu gün üçün yox, həm də gələcək üçün möhkəm təməl yaratmaqdır. Bu məqsədlə UAzəri-Çıraq-Günəşli neft yatağının işlənilməsinin 2050-ci ilə qədər uzadılması haqqında müqavilə imzalanmışdır.

***- Eldar müəllim, ölkəmizin inkişafı prosesindən danışdınız. Təəssüf ki, müəyyən dairələr, xüsusilə mühacir müxalifət ölkəmizə qarşı qarayaxma kampaniyası aparır. Buna münasibətiniz necədir?***

- Bu gün abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz, dünyanın ən gözəl şəhərlərindən birinə çevrilən Bakı şəhəri, tikilən 3 mindən artıq məktəb, 600-dən çox xəstəxana, 50-dən çox olimpiya mərkəzi, inşa edilmişə 11 min kilometrdən çox yollara 250 mindən çox köçkün üçün 100-ə yaxın təzə qəsəbələr, yeni yaradılmış enerji infrastrukturu, dinamik inkişaf edən və şaxələndirilən iqtisadiyyat, - bütün bunların təməlində neftdən əldə edilən gəlirlərdən səmərəli istifadə etməyə yönəlmiş sistemli islahatlarla daim təkmilləşən iqtisadiyyatın Azərbaycan modeli dayanır. Bu modelin bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və İlham Əliyev cənabları tərəfindən 16 illik Prezidentlik dövründə müasir tələblərə uyğun modernləşdirilərək inkişaf etdirilmişdir. Lakin bu uğurları görməməzliyə vuran, Azərbaycan Respublikasında ümumi daxili məhsulun əhəmiyyətli dərəcədə artmasından, ölkə iqtisadiyyatına 231 milyard manat sərmayə qoyulmasından, vayuta ehtiyatlarının 45 milyard manatı ötməsindən, ölkənin regionda söz sahibi olmasından, nəqliyyat dəhlizinə və loqistik mərkəzinə çevrilməsindən, vətəndaşların rifah halının gündəngünə yaxşılaşmasından, ictimai-siyasi sabitliyin bərqərar olmasından, Ermənistanın işğal etdiyi torpaqların bir hissəsinin geri alınmasından, vətəndaşlarla hakimiyyətin monolit birliyindən təşvişə düşən anti-Azərbaycan qüvvələrin, mühacir müxalifətin respublikamızda görülən işlərə kölgə salmaq, vəzifəli şəxslərə böhtan atıb təhqir etməklə insana yaraşmayan işlərlə məşğul olması heç bir nəticə verməyəcək. Çünki xalq hər şeyi görür və reallığı düzgün qiymətləndirir. Reallıq isə ondan ibarətdir ki, 1993-cü ildən indiyə kimi Azərbaycan Respublikasında həyata keçirilən siyasət Azərbaycan xalqına və dövlətinə xidmət edir.

Son 16 ilin yekunları sübut edir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə formalaşan və dövrün müasir tələblərinə uyğun daim təkmilləşən sosial yönümlü iqtisadi siyasət ölkəmizin əldə etdiyi uğurları daha da möhkəmləndirəcək, uzunmüddətli gələcək inkişafımızı təmin edəcəkdir.

## "Həmişə bu cür təxribatlara çox qətiyyətli cavab verən Azərbaycan Prezidentinin qətiyyətli mövqeyini alqışlayıram"



Tamamilə əminəm ki, Azərbaycanın "Valday" diskussiyalarında ən yüksək səviyyədə iştirak etməsi siyasi zərurətdən irəli gəlir.

Bunu AZƏRTAC-ın müxbiri ilə söhbətində politoloq, TASS agentliyinin diplomatik informasiya strukturları ilə əlaqələr şöbəsinin rəhbəri Səadət Qədirova deyib. O əlavə edib: "Burada bir neçə amil var: həm bizim prezidentlər arasında şəxsi əlaqələrin yüksək səviyyəsi, həm də ölkələrimiz arasında əmtəə dövriyyəsi".

Politoloqun fikrincə, tədbirin ən çox müzakirə olunan epizodu Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş nazirinin Dağlıq Qarabağ bölgəsi ilə bağlı bəyanatına verdiyi cavab olub. "Dağlıq Qarabağ Ermənistandır bəyanatına Rusiya tərəfindən də qiymət verilib. Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov deyib ki, "bu cür bəyanatlar münaqişənin nizamlanmasına kömək etmir". Diplomatik ritorikadan ekspert cəmiyyətinin dilinə çevirdikdə deyə bilərəm ki, bu cür təxribat xarakterli bəyanatlar, onları başqa cür adlandırmaq da mümkün deyil, Ermənistanın siyasi imicinə böyük zərbə vurur. Mən bu cür təxribatlara çox qətiyyətli cavab verən Azərbaycan Prezidentinin sərt mövqeyini alqışlayıram", - deyə S.Qədirova vurğulayıb.

Politoloq qeyd edib ki, özünü qeyri-adekvat proqnozlaşdırılmayan mövqedən aktor kimi göstərən Ermənistan özü üçün siyasi vakuum yaradır.

## Turan Manafzadə: Prezident İlham Əliyevin Soçi bəyanatını Türkiyədə qürurla qarşıladım



Bütün səhnə çıxışlarımda tamaşaçı alqışlarını Azərbaycana olan məhəbbətin sevinci kimi qarşılayıram. Ankara şəhərində 18 oktyabr - Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Gününə həsr olunmuş təntənəli mərasimdəki konsertim isə mənə ikiqat sevinc yaşatdı. Gənc istedadımız Teymur Rəcəbov şahmat üzrə Dünya Kuboku qazanması barədə xəbəri məhz bu mərasimdə eşitmək mənim üçün çox əlamətdar oldu.

Bu fikirləri Əməkdar artist, dirijor və bəstəkar, pianoçu Turan Manafzadə AZƏRTAC-a açıqlamasında bildirib. Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida" bəyanatını Türkiyədə qürurla qarşıladığını bildirən Əməkdar artist əminliklə ifadə edib ki, Azərbaycan tezliklə işğal altındakı torpaqlarını düşməndən azad edəcək, ölkəmizin digər bölgələri kimi Dağlıq Qarabağ və ətrafı da abadlaşıb dilbər məkana çevriləcək. T.Manafzadə fikirlərini belə tamamlayıb: "Ən böyük arzum istər, musiqi, istərsə də idman sahəsindəki uğurlarımızın Qarabağın dilbər güşələrində, o cümlədən Şuşada qeyd olunmasıdır. Əminəm ki, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti belə xoş günləri yaşamağı bizə nəsib edəcək".

# “Hüseyn İbrahimov -100”

*100 yaşın mübarək*



Böyük Naxçıvan ədəbi mühitində müstəsna xidmətləri olan xalq yazıçısı Hüseyn İbrahimovun işıqlı simasını hər zaman yaddaşımda canlandırıb, ona rəhmət diləyirəm. Çünki o insanın mənim şair-dramaturq kimi yetişməyimdə əvəzsiz qayğısını unutmaq, sadəcə, nankorluq olar. 1949-1954-cü illərdə Hüseyn müəlim Naxçıvan Dövlət Radio Verilişləri Komitəsinin sədri işləyən vaxtlar hər həftənin 1-ci günü saat 18:15-də pioner və məktəblilər üçün verilişdə, mən yeni yazdığım şeirlərimlə çıxış edirdim. Məktəb müəllimlərim mənim gələcəkdə şair olacağıma artıq inanmışdılar. Bir hadisəni heç zaman unuda bilmirəm. 1952-ci ildə böyük unudulmaz şairimiz Səməd Vurğun Naxçıvana sərhədçilərlə görüşə gəlmişdi. Əslində isə, onun gəlişi Naxçıvan Dövlət Dram Teatrında tamaşaya qoyulan “Vaqif” pyesinin primyerasında iştirak etmək istəyi olmuşdur. Tamaşanın səhərisi günü atam mənə dedi ki, məktəbli formasını geyin, ipək qalstukunu bağla. Vaqif rolunun ifaçısı İsa Musayevgilə gedəcəyik, onların həyətlərində banket olacaq. Səməd Vurğunla səni görüşdürəcəm. Həmin məclisdə mədəniyyət naziri Əli Hüseynov, teatrın baş rejissoru Miribrahim Həmzəyev, Xuraman rolunun əvəzsiz ifaçısı Zəroş xanım Həmzəyeva, Hüseyn İbrahimov, tanınmış ziyalı Qasım Tağıyev, İsa Musayevin bacanağı Təvəkkül Süleymanov iştirak edirdilər. Atamla mənim ora gəlişim Hüseyn İbrahimovun təşəbbüsü ilə olmuşdu. Hüseyn müəllim məclisdə məni Səməd Vurğuna təqdim etdi və dedi ki, “böyük ustad, bu balaca Ramiq hər həftə pioner və məktəblilərin verilişində yeni yazdığı şeiri oxuyur və inanırıq ki, o, gələcəkdə şair olacaqdır.” Mən o vaxt yazdığım “Sülh” və “Bacım Zivər” şeirlərini oxudum. Səməd Vurğun məni bağrına basdı və atama dedi ki, “oğlun hazır şairdir ki. Onun zəmanətini mən əmisi verəcəyəm”. Çox maraqlı faktdır ki, 11 yaşımda yazdığım “Sülh” şeirini mən bəstəkar Ramiz Mustafayevə verdim. O, mahnını bəstələdi və hərbi vətənpərvərlik mövzusunda keçirilən müsabiqədə I mükafata layiq görüldü.

Böyük şairimiz Səməd Vurğun o hadisədən sonra mənə Bakıdan fotoaparat və “Artek” pioner düşərgəsinə “putyovka” göndərdi. Xalq yazıçısı Hüseyn İbrahimov bütün gənclərə böyük qayğı göstərirdi. Onların kitablarının nəşriyyatlarda çapına köməklik edirdi. Naxçıvan ədəbi mühiti, nəhayət, İttifaq statusu aldı və ətrafını daha da genişləndirdi.

Yazıçı Hüseyn İbrahimov yaradıcılığa şeirlə başlamışdı. Onun ilk şeiri “O düşməndə qoymadı anasının qanını” adlanırdı. Həmin şeir 1944-cü ildə “İnqilab və mədəniyyət” jurnalında çap olunmuşdu. Sonra fəaliyyətini nəsrlə davam etdirən xalq yazıçımız bir-birinin ardınca “Bahar hekayəsi”, “Kamalın ad günü”, “Zərifənin çiçəkləri”, “Sabahın sorağında”, “Günəş doğan yerdə”, “Əsrin onda biri” və s. əsərləri oxucu kütləsinin böyük sevgisini qazanmışdır. Mənim yaxşı xatirimdədir ki, “Bahar hekayəsi” əsəri əl-ələ gəzirdi. Əsəri, demək olar ki, bütün gənclər oxumuşdu. Hüseyn İbrahimovun “Torpağın övladları”, “İtirilən sağlıq” pyesləri də tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdı. Şərqin böyük dramaturqu Hüseyn Cavidin faciəli həyatını əks etdirən “Böhtan” romanı isə Hüseyn müəllimin, mən deyərdim ki, zirvə əsəridir. Maraqlı tapıntılarla və ürək ağrısı ilə yazılan bu əsər ədəbi mühitdə bir hadisəyə çevrilmişdi. Ulu Öndərimiz Heydər Əliyevin onun yaradıcılığına böyük sevgisi var idi. O, “Xalq yazıçısı” adına layiq görülmüş, “Şöhrət” ordeni ilə təltif olunmuş, Prezident təqaüdçüsü kimi yaradıcılığı qiymətləndirilmişdir. Sevinirik ki, yazçısı Hüseyn İbrahimovun ruhu bu gün şaddır. Çünki onu ürəkdən sevən xalqı, müstəqil dövləti vardır.

***Ramiq Muxtar,***
***Prezident təqaüdçüsü, “Şərəf” ordeni***

# Avstraliyalı jurnalistlər: **Azərbaycana səfər bizdə unudulmaz təəssüratlar yaratdı**



Xəbər verdiyimiz kimi, Avstraliyanın kulinariya üzrə məşhur fotoqraf və bloqqeri Kitti Gould, televiziya rejissoru Timoti Tatçer, kulinariya və səyahət üzrə peşəkar jurnalistləri Sofia Levin və Kassandra Çarlik bu günlərdə ölkəmizdə səfərdə olublar. Onlar səfərlə bağlı təəssüratlarını AZƏRTAC-la bölüşüblər. Rejissor Timoti Tatçer Azərbaycana səfər etmək qərarına iştirak etdiyi bir yemək festivalında ölkəmizin ləziz təamları ilə tanış olduqdan sonra gəldiyini bildirib. O deyib ki, Azərbaycanda 10 hissəli televiziya proqramı çəkməyi planlaşdırır və bunun üçün gələn ilin may ayında yenidən ölkəmizə gələcək. Rejissor Azərbaycanın regionlarında da gördüklərinin onda xoş təəssüratlar yaratdığını qeyd edib. Jurnalist Sofia Levin Azərbaycan milli mətbəxinə heyran qaldığını bildirib. O, yeməklərin hər birinin özünəməxsus dadı olduğunu vurğulayıb, “Şah plov” və “cızbız”ı isə daha çox sevdiyini deyib. Jurnalist milli mətbəximizin bu ləziz təamlarını İçərişəhərdəki restoranların birində daddığını, oradakı mühitdən heyran olduğunu söyləyib.

Fotoqraf və bloqqer Kitti Qould isə Azərbaycanın artıq onun izləyicilərində də böyük maraq doğurduğunu, onların bir çoxunun ölkəmizi ziyarət etməyi planlaşdırdığını bildirib. O, Azərbaycan Milli Xalça Muzeyi ilə bağlı təəssüratlarını bölüşərək muzeydə inanılmaz dərəcədə gözəl bir gün keçirdiyini vurğulayıb, xalçanın qədim toxunma üsulları ilə tanış olduğunu diqqətə çatdırıb. Kassandra Çarlik azərbaycanlıların çox qonaqpərvər olduqlarını qeyd edib. Avstraliya və Azərbaycanın oxşar cəhətlərinin olduğunu bildirən qonaq hər iki ölkədə mətbəxin önəmli yer tutduğunu, insanları birləşdirdiyini vurğulayıb. O, həmçinin Azərbaycanın təbiətinə heyran qaldığını bildirib.

Avstraliyalı jurnalistlər səfər çərçivəsində Bakı ilə yanaşı, Qəbələ, Şəki və digər bölgələrdə də olublar. Qonaqlar paytaxtla yanaşı, bölgələrimizə də heyran qaldıqlarını deyib, ümumiyyətlə, Azərbaycana səfərin onlarda unudulmaz təəssürat yaratdığını bildiriblər. Qeyd edək ki, səfərin təşkilatçısı Avstraliyada yaşayan, bu ölkədə keçirilən “Masterchef” yarışmasında iştirak edən Samirə Dəmirovadır.

# Qarabağ əlilləri dövlətin diqqət mərkəzindədir

*YAP Xəzər və Pirallahı rayon təşkilatlarının birgə təşkilatçılığı iləbu rayonlardan olan Qarabağ əlilləri ilə görüş keçirilib*



***Yeni Azərbaycan Partiyası Xəzər və Pirallahı rayon təşkilatlarının birgə təşkilatçılığı ilə partiyanın Xəzər rayon təşkilatının qərargahında Xəzər və Pirallahı rayonlarından olan Qarabağ əlilləri ilə görüş keçirilib.***

Tədbirdə Xəzər rayon İH başçısı Elşən Salahov, Milli Məclisin deputatı Rauf Əliyev, YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov, YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov, Dövlət Sosial-Müdafiə Fondunun Xəzər rayon şöbəsinin müdiri Firdovsi Bədəlov, Xəzər rayon Vətən Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Səfa Əliyev çıxış ediblər. Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən Qarabağ əlillərinə daima diqqət və qayğı göstərildiyini, Cənab Prezidentin imzaladığı müvafiq fərmanlarla Qarabağ əlillərinin sosial müdafiəsinin daha da gücləndirilməsi üçün tədbirlərin həyata keçirildiyini qeyd ediblər.



Milli Məclisin deputatı R.Əliyev həyata keçirilən tədbirlərin Xəzər və Pirallahı rayonlarında yaşayan Qarabağ əlillərinin sosial vəziyyətlərinin daha da yaxşılaşdırılmasına təsirindən danışıb və bu tədbirlərin dövlət tərəfindən, davamlı olaraq, həyata keçiriləcəyini bildirib. Tədbirdə iştirak edən Qarabağ əlilləri onları narahat edən bir neçə ümumi məsələlərin və bir sıra şəxsi məsələlərin həll edilməsində köməklik göstərməyi xahiş ediblər. Rayon İH başçısı Elşən Salahov və millət vəkili R.Əliyev qaldırılan məsələlərin araşdırılacağını, həll olunacağı ilə bağlı tədbirlərin görüləcəyini və lazım olarsa, əlaqədar dövlət qurumlarına müraciət olunacağını bildiriblər.

Tədbirin sonunda Xəzər rayon Vətən Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri Birliyinə Xəzər rayon icra hakimiyyəti tərəfindən “notbook” hədiyyə edilib.

***Rövşən RƏSULOV***

# Almaniyanın “Zitty” internet portalı İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş konsertdən yazıb




Almaniyanın “Zitty” internet portalında “Azərbaycandan Nəsimi ansamblının ifasında İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş konsert” sərlövhəli məqalədə yer alıb. Məqalədə Almaniyaya gələn Nəsimi ansamblının böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyi münasibətilə Berlində konsert verildiyi bildirilir. Konsertdə Azərbaycanlı muğam ifaçıları Teyyub Aslanov və Mütəllim Dəmirovla yanaşı, soprano Afaq Abbasovanın Nəsiminin əsərləri əsasında hazırlanmış musiqi nömrələri ifa etmələri barədə məlumat verilir. Məlumatda Nəsiminin əsərlərində insan, bəşəriyyət və məhəbbət mövzularına xüsusi yer verildiyi qeyd olunur. Konsertdə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, UNESKO-nun “Sülh artisti” Firəngiz Əlizadə ilə yanaşı, digər Azərbaycan bəstəkarları, Cəlal Abbasov, Aliyə Məmmədova, Firudin Allahverdi, Said Qani və Tahir İbişovun da əsərlərinin səsləndirilməsi nəzərə çatdırılır.

# Əli Kərimli hara, "Valday"ı anlamaq hara?..

## *Yaxud AXCP sədri nəyə görə gedib siyasət elmini öyrənməlidir?*

***Prezident İlham Əliyevin Soçidə - "Valday" Diskussiya Klubunun toplantısında Ermənistanın baş naziri Nikol Paşinyana verdiyi nidalı, sərt və möhtəşəm cavabı, söz yox ki, erməniləri ciddi şəkildə narahat etdi. Lakin narahat olan yalnız Nikol və erməni ictimaiyyəti deyildi, onun qədər təlaş keçirənlərdən biri də, məhz ermənilər qədər ölkəmizə və xalqımıza düşmən kəsilən AXCP sədri Ə.Kərimli oldu ki, o, daxilindəki xəbisliyini, gözlənildiyi kimi, bloqerliyi ilə üzə çıxardı. Dərhal qollarını çırmayaraq, klaviatura arxasına keçən Kərimli Paşinyanın "Qarabağ Ermənistanındır və nöqtə" kimi sərsəm iddiasına qarşı, Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır və nida" cavabını öz təbirincə "təhlil" etdi. İddialı sual verdi ki, bəs həmin cavab nəyə görə dərhal verilmədi, iki aydan sonra verildi və s...***



### AXCP sədri ucuz təfəkkürü ilə yandaşlarının başına ip salıb, dolayır...

Əslində, Ə.Kərimli həmin rəftarı ilə, bir daha sübut elədi ki, o, heç vaxt siyasətçi olmayıb, bundan sonra da olmayacaq! Halbuki AXCP sədri hakimiyyətə iddialı olduğunu bəyan edir, uzun illərdir ki, öz uğursuzluqlarını populistliyi, daxili auditoriyasına hesablanmış ucuz təfəkkürü ilə yandaşlarının başına ip salıb, dolayır...

Əgər Kərimli, həqiqətən də, Azərbaycan Prezidentinin "Valday" Diskussiya Klubundakı cavabının, nəyə görə iki ay sonra verildiyini anlamırsa, sözün həqiqi mənasında, qanmırsa, demək, ona kiçik bir siyasi dərs keçmək lazımdır. Misal üçün, AXCP sədri anlamalıdır ki, əgər siyasi çevrələrdə kimsə digərinə eyham olaraq, sərt bəyanat səsləndirirsə, həmin bəyanata dərhal cavab vermək ondan təsirlənmək mənasını daşıyır. Yaxud bəyanata cavab zamanında, yerində, daha geniş auditoriyada verilir ki, bu da, daha effektli nəticə tapır. Prezident İlham Əliyevin Paşinyana cavabı da birbaşa beynəlxalq auditoriyada verildi ki, əgər erməni baş nazir öz sərsəm fikirlərini işğal olunmuş Qarabağda səsləndirmişdisə, bizim dövlət başçımız ən mötəbər toplantıda nidalı bəyanatı verdi.

### Orada daha kimlər yox idi ki...

Ə.Kərimli sosial şəbəkələrdə sərsəm suallar verib, öz təbirincə, xal toplaması yerinə, bilməlidir ki, "Valday" Diskussiya Klubu, fəaliyyət göstərdiyi 15 il ərzində, beynəlxalq avtoritetli meydana çevrilib ki, orada müxtəlif sahələr - siyasi, iqtisadi, mədəniyyət üzrə peşəkar dialoqlar keçirilir. Ötən illər ərzində klubda ən geniş və aktual problemlər müzakirə olunub: Suriya, Liviya, Kosovo, Ukrayna, Koreya yarımadası, BMT-nin təkmilləşdirilməsi, sanksiyalara reaksiya, eləcə də, ABŞ, Aİ və NATO münasibətləri.

Bundan əlavə, keçirilən sonuncu iclas klubun fəaliyyət göstərdiyi illər ərzində ən çox müzakirəli və statuslu olub - beş ölkənin dövlət başçıları, bir neçə xarici işlər nazirləri və onların müavinləri, OPEK rəhbəri, Rusiya Federasiyasının rəhbər strukturlarından olan subyektlər və 50-dən çox ABŞ-dan Çinə qədər müxtəlif beynəlxalq analitik mərkəzlərin təmsilçiləri.

Təkcə, bir nəzər atmaq lazımdır ki, orada daha kimlərin iştirakını müəyyən, müzakirə formatının iştirakçıları olan intellektual elitaların siyasi nüfuzlarını, əhəmiyyətlərini anlayasan. Belə ki, klubun daimi ekspertləri sırasında Almaniyanın NATO şurasının eksdaimi nümayəndəsi, Almaniyanın Böyük Britaniyadakı səfiri Hans-Fridrix fon Plöts, Avstiyanın sabiq federal kansleri, "Rusiya-Avropa" (Vyana) Forumunun rəhbəri Volfanq Şyüssel, "Qlobal sosial ədalət" Ümumdünya QHT-nin rəhbəri Fransin Menstrum, Beynəlxalq Strateji Araşdırmalar (CISS) Mərkəzinin direktoru Əli Sərvər Nəkvi, Vaşinqtonun Yaxın Şərq İnstitunun elmi əməkdaşı, nüfuzlu politoloq Güney Yıldız, Rusiya Elmlər Akademiyasının ABŞ və Kanada üzrə baş elmi əməkdaşı Vladimir Vaslyev, Rusiya Elmlər Akademiyasının ABŞ və Kanada üzrə Hərbi-Siyasi Araşdırmalar İnstitunun rəhbəri Vladimir Batyuk, Avropanın məşhur siyasi proqnozçusu və politoloqu Aleksandr Rar, Rusiyanın nüfuzlu şərqşünasları Konstantin Truyevtsev və Dmitri Yevremenko və başqa intellektuallar zümrəsi "Valday" klubunda əsas iştirakçılar sırasında yer alıblar.

### Əli Kərimli nə qədər ucuz və lüzumsuz bir fərd olduğunu qanmalıdır!

Məhz belə bir məqamda, Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş nazirini, sözün həqiqi mənasında, yerində otuzdurması, sərt şəkildə və zamanında cavabını verməsi, yüksək şəkildə dəyərləndirildi. Belə olan halda, sosial şəbəkələrin künc-bucaqlarında var-gəl edib, guya ki özünü "ağıllı" hesab edərək, sərsəm suallar ünvanlayan Ə.Kərimli, yaxşı olardı ki, gedib siyasi bilgisini artırmaqla məşğul olsun. Hər halda, dünyanın və Avropanın nüfuzlu siyasi-ictimai, elmi elitası qarşısında özünün nə qədər ucuz, lüzumsuz bir fərd olduğunu, sözün həqiqi mənasında, qansın-qansın və sosial şəbəkələrdə çox da var-gəllər edib, daha da rüsvay olmasın...

***Rövşən RƏSULOV***

# "Milli Şura" iflas mərhələsinə qədəm qoyub

***"Milli Şura" Bakının mərkəzində icazəsiz aksiya keçirməyi nəzərdə tutur. Bu, artıq polislə qarşıdurmaya getmək və Bakı şəhərində asayişi pozmaq üçün əvvəlcədən planlaşdırılmış növbəti bir təxribatın tərkib hissəsi ola bilər? Eyni zamanda, bunun arxasında yerli və xarici məkrli qüvvələrin sifarişi və dəstəyinin dayandığını nə dərəcədə ehtimal etmək mümkündür?***

### <u>"Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova:</u> "Milli Şura" tamamilə iflasa uğramış bir təşkilatdır"



- "Milli Şura" adlanan qurum Azərbaycanın ictimai-siyasi həyatında tamamilə iflasa uğramış bir təşkilatdır. Zaman keçdikcə, onun adı belə unudulmaqdadır. Belə bir vəziyyətdə "Milli Şura"da təmsil olunanlar varlıqlarını göstərə bilmək üçün müxtəlif təxribatlara əl atırlar. Qanunsuz aksiyaların keçirilməsinə cəhd də bunlardan biridir. Azərbaycanda hər zaman sərbəst toplaşmaq azadlığı və insan hüquqları yüksək səviyyədə təmin edilib. Bu qüvvələr isə, ölkəmizin artan nüfuzundan ciddi narahatlıq keçirirlər. Çünki son zamanlar, hətta erməni lobbisinin maliyyə dəstəyi ilə fəaliyyət göstərən beynəlxalq təşkilatlar belə ölkəmizə qarşı qarayaxma kampaniyasını davam etdirmək üçün hansısa əsas tapa bilmirlər. İndi bu qüvvələr ölkəmizdəki "5-ci kolon"a yeni qarayaxma kampaniyasına start vermək üçün "tutarlı əsaslar" tapmağı tapşırıblar. "Milli Şura" isə xaricdəki havadarlarının bu tapşırıqlarını yerinə yetirmək, əlavə maliyyə əldə etmək üçün şəhərin mərkəzində qanunsuz aksiyalara çağırışlar edir. Təbii ki, bütün bunların hamısı Azərbaycanın uğurlarını gözü götürməyən qüvvələrin idarə etdiyi mərkəzlərdə yazılan ssenarilərin bir hissəsidir. Bu işlər planlı şəkildə hazırlanır və dövriyyəyə buraxılır. Təəssüf ki, içimizdəki bəzi qüvvələr də, onların bu məkrli planlarının oyunçularına çevrilməyə həvəslə razılaşırlar.

### <u>TOHGMİB-nın sədri Emin Həsənli:</u> "Milli Şura" uğursuzluğa məhkumdur"

- Hər zaman olduğu kimi, yenə də müxalifət təmsilçiləri anormal hərəkətləri ilə özlərini gündəmə gətirməyə çalışırlar. Onsuz da bəri başdan bəllidir ki, onlar tərəfindən keçirilən aksiyalar heç vaxt baş tutmayıb və bundan sonrada baş tutmayacaqdır. Ona görə də, yaxşı olardı ki, müxalifət bu cür yersiz hərəkətlərində əl çəksinlər. Onsuz da hər kəsə məlum məsələdir ki, xaricdə bəzi qüvvələr var ki, onlar Azərbaycanın uğurlarına kölgə salmaq istəyirlər. Demək olar ki, həmin xarici qüvvələr ölkəmizdə nə isə bir xoşagəlməz bir vəziyyət yaratmaq üçün əllərindən gələni edirlər. Amma hər dəfə də onların ölkəmiz ilə bağlı planları baş tutmayaraq uğursuzluqla nəticələnir. Bir sözlə, istər xarici qüvvələrin, istərsə də daxildə olan müxalifətin nə etməsindən və nə istəməsindən asılı olmayaraq onların heç bir məkrli planları baş tutmayacaqdır. Müxalifətin xalq tərəfindən heç bir dəstəyi yoxdur. Bu da, onların nəzərdə tutduqları aksiyaların baş tutmayacağından xəbər verir.



### <u>ADİİM-nin sədri "Avrasiya" İA-nın baş redaktoru Cavid Şahverdiyev:</u> "Əli Kərimli icazəsiz aksiyalara gəncləri çıxaracaq, özü isə polisin dəyənəyindən qorxub, qaçıb gizlənəcək"

- "Milli Şura" adlanan qurum icazəli mitinq keçirməklə, hansı nəticə əldə edə bilib ki, icazəsiz aksiya keçirməklə nəsə əldə etsin. "Milli Şura" icazəsiz aksiya keçirməklə, yalnız qarşıdurma yaratmağa cəhd göstərəcək. Amma o qurumun liderləri hələ də anlamırlar ki, artıq ötən əsrin 90-cı illəri deyil və artıq inkişaf edən hüquqi, demokratik və güclü Azərbaycan mövcuddur. Dağıdıcı müxalifətin məqsədi ölkədə sabitliyi pozmağa, xaos və anarxiya mühiti yaratmaqdır. Bu istək isə, heç bir vaxt reallaşmayacaq. Ona görə ki, Azərbaycanda xalq-hakimiyyət birliyi var. Bu güc istənilən xarici və daxili qüvvələrin pozuculuq planlarının qarşısını almağa qadirdir. "Milli Şura" adlanan qurumun facielərindən biri də xalqı düşünməmələridir. Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına dair Prezident İlham Əliyevin sosial siyasəti, qəbul etdiyi qərarların əhali tərəfindən rəğbətlə, sevinclə qarşılanması dağıdıcı müxalifəti heç cür razı salmır. Məgər bu qərarlar bütün Azərbaycan xalqına şamil edilmirmi, məgər əhalinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı hakimiyyətin yürütdüyü siyasətdən radikal müxalifət liderlərinin yaxınları, qohumları, əzizləri yararlanmırlarmı? Əlbəttə ki, yararlanırlar, axı onlar da bizdəndirlər, bizim vətəndaşlardır. Bəs niyə radikal müxalifət bunu qəbul etmir, nədən həmişə bu hakimiyyəti necə devirməyin yolunu axtarır?.. Meriya onlara yer ayırdı və təhlükəsizlikləri, həmişə olduğu kimi, təmin edilməklə, mitinq keçirmək üçün bütün şərait yaradılacaqdı. Amma müxalifət bundan imtina etdi. Səbəblər müxtəlifdir. Bunlardan da biri Qərbin verdiyi vəsaiti, nə yolla olursa-olsun yumaq. "Milli Şura" da icazəsiz mitinq keçirmək qərarına gəlib, bu, onlar üçün ən rahat variantdır. 10-15 nəfəri tökəcəklər meriyanın qarşısına, hay-küy yaradacaqlar, polislə qarşıdurmaya belə gedəcəklər, hətta özlərinə xəsarət belə yetirmədən çəkinməyəcəklər... Təki Qərbi razı salsınlar. Həmişə olduğu kimi, bu dəfə də Əli Kərimli icazəsiz aksiyalara gəncləri çıxardacaq, özü isə polisin dəyənəyindən qorxub qaçıb gizlənəcək. Bir polis dəyənəyindən qorxub, qaçan lider necə xalqın, millətin mənafeyini düşünə bilər?



***GÜLYANƏ***

# Son 5 ildə Türkiyədə neçə min azərbaycanlı mənzil alıb?

***Türkiyədə ötən 5 il ərzində 6 milyon 584 min mənzil satılıb. AZƏRTAC xəbər verir ki, bu əmlakların 1 milyon 154 mini İstanbulda, 691 mini Ankarada və 388 mini İzmirdə alınıb. Son 5 il ərzində ən çox mənzil 2017-ci ildə satılıb və sayı 1 milyon 409 min 314 təşkil edib.***



Bu müddət ərzində xarici vətəndaşlara satılan mənzillərin sayı 137 min 869 olub. Cari ilin 8 ayında xaricilərə satılan mənzil sayı ötən ilin eyni dövrü ilə müqayisədə 50 faiz artıb. Ötən 5 il ərzində 4 min 328 azərbaycanlı Türkiyədə mənzil sahibi olub. Xarici vətəndaşlar tərəfindən ən çox əmlak Türkiyənin Antalya şəhərində alınıb. Onların sırasında ilk yerdə iraqlılar dayanır. Bundan əlavə Türkiyədə əmlak alan xaricilər arasında Səudiyyə Ərəbistanı, Küveyt, İran, Rusiya, Əfqanıstan, Almaniya, İngiltərə, Azərbaycan və Ukrayna vətəndaşları da var.

# Ermənistanın diplomatiyası darmadağın edilib

***Məlum olduğu kimi, Soçi şəhərində "Valday" klubunun toplantısında çıxış edən Prezident İlham Əliyev "Qarabağ Azərbaycandır, nida işarəsi" fikri ilə bir daha Azərbaycanın haqq işini müdafiə etməklə, Paşinyanın siyasətini darmadağın etdi. Söhbət etdiyimiz müsahiblərimiz Prezident İlham Əliyevin çıxışının Azərbaycanın və azərbaycanlıların deyil, bütün dünyanın diqqətini özünə cəlb etdiyini bildirdilər.***

Millət vəkili Elşən Musayev: **"Paşinyanın sərsəmləmələri, görüşləri və yalanları anındaca məhv oldu"**



- Azərbaycan Prezidenti İlham Əliyevin Soçi şəhərində, "Valday" Beynəlxalq Diskussiya Klubundakı möhtəşəm çıxışı bir tək Azərbaycanın və azərbaycanlıların deyil, bütün dünyanın diqqətini özünə cəlb edib və artıq həmin çıxış ətrafında bir neçə gündür müsbət anlamda çox ciddi müzakirələr aparılır. Böyük, faydalı və mötəbər tribunada dövlət başçısı öz fikirlərini, öz üslubunu, öz qətiyyətini ən gözəl şəkildə ifadə etdi, Dağlıq Qarabağla bağlı dolğun həqiqətləri və xalqın mövqeyini geniş ictimaiyyətə çatdırdı. Hər kəsə məlumdur ki, "Valday" həm də dünyanın beyin mərkəzlərindən biridir və orada səslənən mesajların dünya siyasətinə təsiri hansı səviyyədədir. Paşinyanın bir həftədir tirajlanan sərsəmləmələri, görüşləri və yalanları anındaca məhv oldu. Məhz məhv oldu! Paşinyanın nöqtəsi qarşısına böyük bir nida qoyuldu! Ermənistanın avantürist rejimi belə bir dolğun cavabın, qətiyyətin qarşısında susqun və köməksiz qalıb. Cavab yoxdur! Ola da bilməz. Putinin, Lavrovun açıqlamaları, beynəlxalq ekspertlərin şərhləri də, onu deməyə əsas, rəvac verir ki, bütün dünya artıq reallıqla barışıb, Azərbaycanın gücünü görür və onun haqlı mövqeyini bölüşür. Paşinyan bu gün, həqiqətən, saman çöpündən yapışıb, ona görə eyforiyadadır, siyasi rentabelliyi saxlaya və nizamlaya bilmir. İlham Əliyev isə düşmənə siyasi zərbəni, diplomatik şilləni lazım olan anda, məqamda vurur. Məhz lazım olan məqamda! "Valday"ın tribunasında səslənən o möhtəşəm fikirlərdən və NİDALI ÇIXIŞdan sonra hələ çox müzakirələr olacaq, çox mətləblər açılacaq. Cənab İlham Əliyev qürur duyulası Liderdir, Prezidentdir və Dağlıq Qarabağın düşmən işğalından azad edilməsi də, məhz onun rəhbərliyi dövründə olacaq. Buna kimsə şübhə etməsin.

Azərbaycan Mətbuat Şurasının sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu: **"Prezident İlham Əliyevin "Valday" klubunda çıxışı bizi qələbəyə yaxınlaşdıran uğurlu məqamlardan biridir"**



- Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində atdığı addımlar və etdiyi çıxışlar Azərbaycanın xarici diplomatiyasında ən uğurlu məqamlarından biridir. Ölkə Prezidenti İlham Əliyev milli və dövlətçilik maraqlarının müdafiəsində çox müdrik və prinsipial mövqe nümayiş etdirir. Dövlət Başçısını "Valday" Diskussiya Klubunda "Qarabağ Azərbaycandır və nida işarəsi" deməsi, Ermənistanın baş naziri Nikol Paşinyanın apardığı siyasətin darmadağın edilməsi və Qarabağ həqiqətlərinin, ölkəmizin haqlı mövqeyinin bir daha dünyaya çatdırılması baxımından çox əhəmiyyətli idi. Paşinyana gəlincə isə, o, aşağı nüfuza malik və təsadüfi Ermənistanda rəhbərliyə gəlmiş birisidir. Ümumiyyətlə, Paşinyanın açıqlamaları, bəyanatları ölkə içərisində, ölkədən kənar olan çıxışları dövlət təmsilçisinə yaraşmayan çıxışlardır. Daha doğrusu, küçə adamının söylədiyi, danışdığı çıxışlardandır. Onun açıqlamaları daha çox gülüş hədəfinə çevrilir. Bu mənada, hesab edirəm ki, Prezident İlham Əliyevin "Valday" klubunda çıxışı bizi qələbəyə yaxınlaşdıran uğurlu məqamlardan biridir.

***GÜLYANƏ***

# Ermənistan mətbuatı nə yazır?

## *"Armenianreport": "Tramp, ermənipərəst konqresmenləri impiçment etməyə çağırdı"*

***ABŞ prezidenti Donald Tramp ABŞ-ın nümayəndələr palatasının spikeri Nensi Pelosi və palatanın nümayəndələr komitəsinin kəşfiyyat işləri üzrə sədri Adam Şiffin, həmçinin, onlarla iş birliyində olan şəxslərin dövlətə xəyanət ittihamı ilə impiçment edilməli olduqlarını hesab edir.***

"Nensi Pelosi hiyləgər Adam Şiffin mənim barəmdə və Konqresə və Amerika xalqına qarşı olan yalanları, kütləvi dələduzluqları haqqında hər şeyi bilirdi" deyə "Twitter" səhifəsində yazan Trampın sözlərinə görə, o bütün hallarda - xüsusi ağır və çoxsaylı cinayətlərinə, hətta dövlətə xəyanətinə görə Şiff qədər günahkardır.



Xatırladaq ki, həm Adam Şiff, həm də Nensi Pelosi daim və ənənəvi olaraq, ermənipərəstlik mövqeləri ilə seçilən konqresmenlərdirlər. O cümlədən, Dağlıq Qarabağın işğalı məsələsində təcavüzkar Ermənistanın mövqeyindən çıxış edirlər.

Narek Malyan: **"Bu ölkədə qanun yalnız seçilənlər üçün fəaliyyət göstərir"**

Ermənistanın "Veto" hərbi-ictimai hərəkatının təsisçisi Narek Malyan "Facebook" sosial şəbəkəsindəki səhifəsində xatırladıb ki, bu ilin martında ona edilən hücumu törədənlər hələ də bu əməllərinə görə cəza almayıblar. Videoda yerləşdirən Malyan qeyd edib ki, ona hücüm edənlər sorosçulardırlar. "Hazırkı günə qədər yayımlanmamış videoyazı sübut edir ki, cari ilin 3 mart tarixindən 4 mart tarixinə keçən saatlarda sorosçular tərəfindən təşkil edilən hücumda məni oğurlamaq cəhdi olub" deyə yazan N.Malyan, həmçinin, bildirib ki, hazırkı vaxta qədər heç bir hüquq-müdafiə təşkilatı, rəsmi olaraq, həmin cinayəti pisləməyib: "Soros ofisinin muzdlu humanistlərinə əmr verilib ki, onlar sussunlar. Bütün bu dövr ərzində, parlamentin insan hüquqları üzrə daimi komissiyası da susub. Demək istəyirəm ki, bizim ölkədə qanun yalnız seçilənlər üçün fəaliyyət göstərir. Hüquq müdafiəçiləri isə, həqiqətə qalanda, insan hüquqlarını deyil, öz qrup və dərilərinin maraqlarını güdürlər".

Aşot Aşotyan: **"Ermənistan mətbuatına olan hər bir təzyiqin arxasından hakimiyyətin qulaqları görünür"**

Bu fikirləri özünün "Facebook" səhifəsində Respublika partiyasının vitse-sədri Armen Aşotyan "Ayeli" mətbuat klubuna edilmiş basqın hadisəsini şərh edərkən yazıb.

Aşotyan, ümumilikdə, qeyd edib ki, onun özü "Ayeli"nin KİV-dəki fəaliyyətini elə də bölüşmür, lakin buna baxmayaraq, informasiya sahəsinə edilən istənilən hücum yolverilməzdir.

"Xüsusilə, bənzər hücumların hədəfi müxalifətyönlü KİV və jurnalistlər olurlar" deyə yazan partiya təmsilçisi istisna etmir ki, belə hücumların arxasından hakimiyyət çıxır.

Xatırladaq ki, oktyabrın 5-də 4 gənc yaşlı insan "Ayeli" redaksiyasını yumurta atəşinə tutublar, sonra isə, özünü David Ovanisyan kimi təqdim edən şəxs adıçəkilən redaksiyanın bağlanılmasını tələb edib. Etirazçılar hücumlarının səbəbi kimi, "Hayeli.am" saytında "İlham Əliyevin Paşinyana gecikmiş, lakin güclü cavabı" başlıqlı yazısı göstərilib.

***Rövşən NURƏDDİNOĞLU***

# Erməni politoloqu: "Nikol istəsə də, istəməsə də, istefaya getməlidir və gedəcək də"

***Nikol Paşinyanın baş nazir olduğu dövrdən başlayaraq, Ermənistanda mövcud olan narazılıq faktorları daha əvvəllər cüzi şəkildə ictimailəşdirilirdisə, hazırda həmin faktor açıq-aydın, hətta Serj Sarkisyan zamanında olduğu kimi, sərt tonlarda ictimailəşdirilməkdədir.***

Xüsusilə, "məxməri inqilab"dan sonra formalaşdırılmış hökumətin daxilində yaranan ikitirəliklər, hakimiyyətin ayrı-ayrı strukturlarında yaranan qrupların iç savaş aparmaları, güc və s. nazirliklərindən verilən istefalar və qovulmalar belə, deməyə əsas yaradır ki, baş nazir yalnız xarici siyasətində deyil, eləcə də, daxili siyasətində çoxsaylı boşluqlara yol verir, idarəçilik prinsipini itirir, get-gedə kütləvi xalq narazılığı ilə qarşı-qarşıya qalır. Ermənistanın tanınmış politoloqları, media nümayəndələri, demək olar ki, hər gün anti-Paşinyan xarakterli çıxışlar edib, ölkədəki vəziyyətin təhlükəli dərəcədə yaxşı olmadığını dilə gətirirlər.



Verilən vədlərin yerinə yetirilməməsindən başlayaraq, hər bir məqam sərt, hətta aqressiv tonda tənqidlərlə əvəzlənməkdədir.

**"Parlament modeli ilə idarə edilən ölkələr üçün bu, normal haldır"**

"Hazırda bizə təmkinli adam lazımdır ki, konstruktivlik nümayiş etdirsin, cəmiyyətin müxtəlif təbəqələri ilə dialoqa girsin və verdiyi vədlərinə sadiq olsun". "Armenianreport" informasiya portalının verdiyi məlumata görə, bu barədə "Facebook" səhifəsində politoloq Stepan Danielyan yazıb. Onun sözlərinə görə, baş nazir bütün hallarda istefaya getməlidir. SİTAT: "Nikol istəsə də, istəməsə də, istefaya getməlidir və gedəcək də. O, buna məhkumdur. Bu, o demək deyil ki, Ermənistanda hakimiyyət dəyişikliyi olmalıdır. Hakimiyyət parlamentə məxsusdur, baş nazirə yox və yeni hökumətin formalaşdırılması hakimiyyət dəyişikliyi deyil. Parlament modeli ilə idarə edilən ölkələr üçün bu, normal haldır".

Tanınmış erməni politoloqu Paşinyanın bir sıra şanslarını əlindən buraxdığını deyib: "Nikol destruktiv şəxsdir və o, cəmiyyətin konsolidasiyası üçün öz şansından istifadə etməyib. O, hazırda bir çoxları ilə münaqişədə olduğu "Mənim addımım" blokunun fraksiya həmkarları ilə yanaşı, güc strukturlarındakı zabitlərlə, artıq iflas astanasında və diskreditasiyada olan məhkəmə sisteminin nümayəndələri ilə, həmçinin, "Artsax" (dırnaqlar bizimdir - R.R.), eləcə də, Ermənistan ictimaiyyətinin bir hissəsi ilə də münaqişəli vəziyyətdədir". Buradan isə belə bir amil ortaya çıxır ki, hələ Serj Sarkisyan dövründən qalan Ermənistan və Qarabağ erməniləri arasındakı antipatiya, hətta düşmənçilik münasibətlərini çözə bilməyən Paşinyan, bir tərəfdən, Ermənistan ermənilərinin qınaqlarına, digər tərəfdən isə, Qarabağ ermənilərinin hiddətinə tuş gəlir.

**"Nə qədər tez gedərsə, hər birimiz üçün bir o qədər yaxşıdır"**

Beləliklə, bir tərəf onu zəiflikdə, digər tərəf isə ayrı-seçkilikdə, insanları "ağlara" və "qaralara" bölməkdə ittiham edir. Məhkəmə və güc strukturlarında yaşanan xaos isə göz önündədir.

Danielyan Nikolun beynəlxalq meydanlarda da anlaşıqsız siyasət tətbiq etdiyini bildirib və qeyd edib ki, o, bu sahədə uğursuz adam obrazında tanınır: "Beynəlxalq həmkarları arasında, o, uğursuz sima reputasiyasını qazanıb, daxili siyasətində isə, yalnız qalmaqallar yaratmaqla məşğuldur. Mavr öz işini görüb və mavr gedə bilər. Bu və ya digər hallarda, o, vaxtından tez gedə bilər və nə qədər tez gedərsə, hər birimiz üçün bir o qədər yaxşıdır, xüsusilə, onun siyasi komandası üçün".

***Rövşən RƏSULOV***

# Bal yarmarkası: alıcılar da satıcılar da razılıq edirlər

***Sentyabrın 28-dən etibarən Bakının Nərimanov rayonu, Fətəli xan Xoyski prospekti, 10 ünvanında (Tofiq Bəhramov adına Respublika Stadionunun ərazisi) arıçılıq məhsullarının 20-ci Respublika Sərgi-Satış Yarmarkası keçirilir. Builki yarmarkada Daşkəsən, İsmayıllı, Oğuz, Şəki, Zaqatala, Balakən, Astara, Lerik və digər bölgələrdən gətirilən arıçılıq təsərrüfatı məhsulları müştərilərə təqdim olunur.***

"Səs" qəzeti paytaxtda keçirilən yarmarkada hansı çeşiddə məhsulların satışa çıxarıldığı, qiymətlərin hansı civarda olduğu barədə araşdırma aparıb, eyni zamanda, əhalinin və arıçılıq məhsulları satıcılarının yarmarka barədə fikirlərini öyrənib.

Məlum olub ki, yarmarkada müxtəlif bal çeşidlərinin qiyməti 20-30 manat arasında dəyişir. Bal ilə yanaşı, arıçılıq məhsulları satıcıları propolis, kremlər, arı südü, güləm və digər arıçılıq məhsulları da satışa çıxarılıb.

Arıçılıq təsərrüfatı sahibləri bu cür yarmarkaların təşkilinin təqdirəlayiq olduğunu qeyd edib, yarmarkaların yüksək səviyyədə təşkil edildiyinə görə də razılıqlarını ifadə ediblər. Onlar bildiriblər ki, ötənilkilər ilə müqayisədə bu il keçirilən yarmarka daha yüksək səviyyədə təşkil olunması ilə diqqət çəkir. Bütün bunlarla yanaşı, bəzi satıcılar müştəri sayının azlığından şikayətlənirlər və bunu da alıcıların bu yarmarkanın keçirilməsindən, yüksək səviyyədə təşkilindən xəbərsiz olmaları ilə əlaqələndirirlər.

Astara rayonundan gələn və öz arıçılıq məhsullarını alıcılara təqdim edən arıçı Uğur İbrahimov bal yarmarkasında yaradılan şəraitdən hədsiz dərəcədə razılığın bildirir. O, qeyd edir ki, bu yarmarkada onlara ödənişsiz yerlər verilib və təşkilatçıların onlara diqqət göstərmələrindən də razıdır. Arıçı bu yarmarkanın təşkilinə görə, ilk öncə, başda ölkə başçısına, sonra Kənd Təsərrüfatı Nazirliyinə, Qida Təhlükəsizliyi Agentliyinə öz minnətdarlığını bildirib. Qeyd edib ki, bu yaradılan şərait sayəsində, alıcılara arıçılıq məhsullarını təqdim edə bilir və satışın təşkilinə görə də razıdır.

Digər bir arıçı Rəfiqə Allahverdiyeva Daşkəsən rayonundan gəldiyini və orada











hasil etdiyi arıçılıq məhsullarını yarmarkaya çıxardığını dilə gətirib. Bildirib ki, bu yarmarkada onlara elə gözəl şərait yaradılıb ki, bu şəraitdən narazı qalmaq olmaz. Arıçı R.Allahverdiyeva təqdim etdiyi məhsulların bazarda satış üçün yerləşdirilməsindən öncə, yoxlamadan keçdiyini də deyib və bildirib ki, analiz olunan məhsullara görə, keyfiy-



yətli olması barədə onlara sertifikat da verilib.

Şəki rayonunda arıçılıq təsərrüfatı ilə məşğul olan Mövlud Səfərov da yarmarkadan razılığını ifadə edib. Bu bal yarmarkasının əhəmiyyətindən danışan M.Səfərov müştəri sayının azlığından şikayətlənib və bunu da alıcıların bu yarmarkanın keçirilməsindən, yüksək səviyyədə təşkilindən xəbərsiz olmaları ilə əlaqələndirib. O, qeyd edib ki, bu yarmarkalar, bu yarmarkaların belə yüksək səviyyədə keçirilməsi barədə məlumatlı alıcılar, hər il olduğu kimi, bu il də bal yarmarkasına gəlirlər və onlara lazım olan arıçılıq məhsullarını alırlar. Arıçı onu da, xüsusilə, vurğulayıb ki, alıcılar əmin olmadıqları yerdən bal almamalıdırlar və bilməlidirlər ki, bəzi işbazların harada gəldi bal satışını təşkil etməsinə etibar etmək olmaz. O, həmçinin, deyib ki, alıcılar bilməlidirlər ki, keçirilən bu yarmarkalarda onlar tam təbii, keyfiyyətli məhsul əldə etdiklərinə və edəcəklərinə əmin olsunlar.

Alıcılar isə yarmarkadakı məhsulların keyfiyyətli, qiymətlərinin isə münasib olduğunu qeyd ediblər. Onlar etiraf edirlər ki, yarmarkalardan kənarda satılan məhsulların keyfiyyətinə, təbii olmasına əmin deyillər. Alıcılar bu bal yarmarkasında qiymətlərə də toxunublar və onu da vurğulayıblar ki, bu yarmarkada təklif olunan məhsulların qiyməti də münasibdir. Xüsusilə, qeyd ediblər ki, yarmarkalardan kənarda satılan arıçılıq məhsulları bu yarmarkada təklif olunan məhsullardan bahadır və məhz buna görə də yarmarkaların təşkilinə görə onlar da ölkə başçısına və müvafiq strukturlara öz minnətdarlıqlarını bildiriblər.

Alıcı Nuran Qədimov bu yarmarkadan dəfələrlə arıçılıq məhsulları əldə etdiyini deyib və bildirib ki, aldığı məhsulların təbiiliyinə, keyfiyyətinə də əmindir. O, ötən illərdə olduğu kimi, bu il də öz şəxsi istehlakı üçün aldığı məhsulların keyfiyyətindən razılığını bildirib. Qeyd edib ki, bu yarmarkaların təşkilinə görə, alıcılara belə bir şərait yaratdığına görə ölkə başçısına, Kənd Təsərrüfatı Nazirliyinə və müvafiq strukturlara minnətdardır.

Digər bir alıcı, Almarə Şirinova da bu yarmarkadan razılıq ifadə edib. A.Şirinova bildirib ki, hər il keçirilən bal yarmarkasına baş çəkir və təklif olunan məhsullardan alır. O, həmçinin, vurğulayıb ki, bu il də bal yarmarkasına arıçılıq məhsullarından almaq üçün gəlib və hər il olduğu kimi əmindir ki, onun bu yarmarkadan alacağı bal tam təbii və çox keyfiyyətli olacaq.

Hazırda alıcılar şəxsi istehlakı üçün, arıçılıq məhsullarına olan tələbatın ödənilməsi üçün müxtəlif bazarlardan, ayrı-ayrı satıcılardan da bu məhsulları əldə etdikləri günün reallığıdır. Ölkənin hər bir bölgəsində, eləcə də, paytaxtda fəaliyyət göstərən bazarlarda da arıçılıq məhsullarına rast gəlmək mümkündür və onların hər birində də bal, propolis, kremlər, arı südü, güləm və digər arıçılıq məhsullarına rast gəlinir. Hətta bəzən bu məhsulların satışı səyyari qaydada da olur. Amma xüsusilə, qeyd etmək lazımdır ki, bu məhsulların təbiiliyi, keyfiyyəti və digər sağlamlıq üçün vacib məsələlərinə gəldikdə, hansısa bir söz söyləmək çətindir. Daha dəqiq desək, sadalanan formada satışı təşkil olunan arıçılıq məhsullarının keyfiyyətli olub-olmaması dəqiq deyil. Ona görə ki, bu məhsullar heç bir nəzarət olmadan, yoxlanılmadan müştərilərə təqdim edilir və məhz buna görə də, həmin məhsullar və onların keyfiyyəti də ən azından şübhəlidir.

Alıcıların özləri də bu məhsulları alsalar belə, istər-istəməz, keyfiyyət məsələsində şübhəli qalırlar. Çünki alıcılar bu məhsulları yoxlamaq, analiz etmək, keyfiyyətini təyin etmək kimi imkanlara sahib deyillər. Nəzərə alsaq ki, arıçılıq məhsulları qidalılıq dəyəri ilə yanaşı, bioloji dəyərə də malikdir və həmçinin, müalicəvi xüsusiyyətləri də var, ola bilsin çarəsizlik səbəbindən alıcılar həmin məhsulları haradan oldu almaq məcburiyyətində qalırlar. Bu halda alıcılar aldadıla, onlara keyfiyyətsiz məhsullar satıla da bilər. Bu faktı alıcıların, istehlakçıların özləri də təsdiq edirlər və bildirirlər ki, belə bir şəkildə aldadılmaqdan heç kim sığortalanmayıb.

Bütün bu sadalananları nəzərə qalaraq qeyd etmək lazımdır ki, hər il ölkəmizdə keçirilən bal yarmalarının xüsusi əhəmiyyəti var. Əvvəla, ona görə ki, arıçılıq məhsulları satıcıları öz məhsullarını alıcılara təqdim etmək üçün dövlət tərəfindən geniş şərait yaradılır. Bunu üçün xüsusi yer ayrılır və əvvəlcədə ayrılan yerin ünvanı barədə alıcılar məlumatlandırılır. Digər tərəfdən, bal yarmarkalarına çıxarılan məhsullar, ilk öncə, dövlət nəzarətindən keçirilir, analiz olunur və arıçılıq məhsulları satıcılarına yarmarkaya çıxardığı məhsullar barədə müvafiq sertifikatlar da verilir. Bu yoxlama, analiz və müvafiq sertifikatlarla təmin edilməsi hətta arıçılıq məhsulları satıcıları üçün də çox maraqlıdır. Çünki bu məhsulları bazara çıxaranlara, onların təqdim etdikləri məhsullara, bu məhsulların keyfiyyətinə alıcılar etibar edirlər.

Alıcılar da, öz növbəsində, şəxsi istehlak üçün arıçılıq məhsullarına olan tələbatlarının ödənilməsi üçün, məhz keçirilən bal yarmarkalarına üz tuturlar. Həm də bu yarmarkalara üz tutan alıcılar alacaqları məhsulların keyfiyyətinə tam əmin olaraq, bu yarmarkalara yollanırlar. Nəzərə almaq lazımdır ki, bal yarmarkası, artıq ölkəmizdə hər il keçirilir və alıcılar bu yarmarkalar, həmin yarmarkalara çıxarılan məhsulların keyfiyyətli olması barədə tam məlumatlıdırlar. Alıcılar çox yaxşı başa düşürlər ki, bal yarmarkalarına çıxarılan məhsullar ilk öncədən yoxlanılır, analiz edilir və sonra yarmarkalarda satışına icazə verilir. Əks halda, yəni təbii olmayan, keyfiyyətsiz məhsullar yarmarkalara daşına bilməz. Bu baxımdan, ən vacib məqam, məhz odur ki, alıcılar yarmarkalardan aldıqları, yaxud alacaqları məhsulların keyfiyyətinə əvvəlcədən əmindirlər. Əmindirlər ki, bal yarmarkalarında alıcılara təqdim olunan arıçılıq məhsulları tam keyfiyyətlidir və bu səbəbdən də, onun heç bir zərəri ola bilməz və tam istifadə üçün yararlı, ələlxüsus, faydalıdır.

**İNAM**

# CƏBHƏÇİLƏRİN KÜÇƏ TƏFƏKKÜRÜ, YOXSA HÜQUQİ NİHİLİZM?

## *AXCP SƏDRİ ƏLİ KƏRİMLİ NİYƏ QANUNİ PİKETİ İCAZƏSİZ MİTİNQƏ ÇEVİRMƏK İSTƏYİR?*

***Oktyabr ayının 3-də Bakı Şəhər İcra Hakimiyyəti "Milli Şura"nın piket keçirməklə bağlı müraciətini müsbət şəkildə cavablandırıb və BŞİH ilə ADİU arasındakı ərazidə yer də ayırıb. Azərbaycan Respublikasının Konstitusiyasının 49-cu maddəsinin I və II bəndlərinə, eləcə də, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 5-ci maddəsinə əsasən, qərar qəbul edən BŞİH bir daha Azərbaycanın demokratik və hüquqi dövlət olduğunu, insanların bütün hüquq və azadlıqlarının təmin edildiyini nümayiş etdirib.***

Doğrudur, BŞİH "Milli Şura"nın toplaşmaqla bağlı bundan öncəki müraciətinə də müsbət rəy vermişdi. Lakin yetərli sayda tərəfdarı olmadığı üçün "Milli Şura" Lökbatanda mitinq keçirməkdən vaz keçdi. Amma razılığı verilmiş piketi keçirməkdə qərarlı olan "Milli Şura", xüsusilə də, AXCP üzvləri "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 9-cu maddəsinin V bəndinə riayət etməlidir. Qanunda deyildiyi kimi, piket düzəldənlər 50 nəfərdən çox olmamalı və piket edilən obyektin girişinə 10 metrdən yaxın məsafədə yerləşməməli, piket edilən obyektə giriş və çıxış üçün maneələr yaratmamalı və 10 vattdan yüksək olan səs gücləndirici qurğulardan istifadə etməməlidirlər.

BŞİH "Milli Şura"nın mitinq və piket müraciətlərinə icazəni hansısa təzyiqlərə görə deyil, sırf qanundan irəli gələn amillərə görə verdi. Lakin çox təəssüflər olsun ki, "Milli Şura"nın əvəzinə qərar verib, sonradan onu "Milli Şura" adından yayan AXCP sədri Əli Kərimli BŞİH-in piketə razılıq verməsini reallıqdan uzaq mətləblərlə əlaqələndirməyə çalışıb. Bütün bunlar azmış kimi cəbhə trolları "Azərbaycan saatı" kanalında və "Osmanqızı" TV-də canlı yayımda təxribat və çağırış xarakterli rəylər yazıblar. Əlbəttə, heç şübhə yoxdur ki, piketin qanunsuz mitinqə çevrilməsi çağırışlarının edilməsi birbaşa Əli Kərimlinin tapşırığıdır. Çünki cəbhə trolları onun göstərişi olmadan, bir söz belə yazmırlar. Rəylərin yazılışı və məzmunu bir daha isbatlayır ki, trolların yazdıqları, öncədən hazırlanmış şablon fikirlərdir. Diqqətinizə təqdim etdiyimiz şəkildən də görürsünüz ki, rəylərdə insanları piketə razılıq verilməsindən sui-istifadə edib icazəsiz aksiya və mitinqlər keçirməyə çağırırlar. Görünür küçə təfəkkürü ilə davranan cəbhəçilərə, "milli şura"çılara icazəli mitinq və piket keçirmək yaraşmır.

Bu səbəbdən də, onların bu cür təxribatçı hərəkətlərini davam etdirəcəyi təqdirdə, ictimaiyyət nümayəndələri və vətəndaş cəmiyyəti üzvləri BŞİH-ə müraciət etməlidir ki, bir daha "Milli Şura"ya, AXCP-yə mitinq, aksiya və piket keçirməyə icazə verməsin. Əgər bir halda ki, "Milli Şura" və AXCP ətrafında birləşənlər kriminal aləmə meyillidirlərsə, cinayətkarlığa, özbaşınalığa, xaosa rəvac verəcək çağırışlar edirlərsə, o zaman, qanunla onların müraciətlərinə yox deyilməlidir. Çünki "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 7-ci maddəsinin I bəndinə əsasən, sərbəst toplaşmaq azadlığı yalnız qanunda nəzərdə tutulan və demokratik cəmiyyətdə zəruri olan hallarda, milli təhlükəsizlik və ya ictimai təhlükəsizlik mənafeləri üçün, iğtişaşların və ya cinayətin qarşısının alınması, sağlamlığın və mənəviyyatın, digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün məhdudlaşdırıla bilər. Yəni ictimai və dövlət təhlükəsizliyi mənafelərinin qorunması, ictimai asayişin pozulmasının qarşısının alınması, iğtişaş və ya cinayətlərin baş verməməsi, əhalinin sağlamlığının mühafizəsi, əxlaq normalarının və mənəviyyatın mühafizəsi və başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün istənilən piket, aksiya, yaxud mitinq qadağan edilə bilər.

Məhz qanunun göstərilən tələblərinə uyğun olaraq, hüquq-mühafizə orqanları da cəbhə trollarının təhrikçi rəylərini nəzərə alıb, güclü mühafizə tədbirləri görsünlər. Əgər cəbhəçilər qanunu pozarsa, dedikləri kimi piketi qanunsuz mitinqə çevirməyə çalışarlarsa, onları dərhal həbs etsinlər. Amma onu da, etiraf etmək lazımdır ki, Azərbaycanda hüquq-mühafizə orqanları müxalifətçilərə səbrlə, təmkinlə və yumşaq davranırlar. Lakin dünyanın ən demokratik hesab etdiyimiz ölkələrində polislər ictimai asayişin təmin olunması üçün icazəsiz aksiyaların, mitinqlərin iştirakçılarına qarşı çox sərt və amansız olurlar. Biz bunun ABŞ-da, Almaniyada, B.Britaniyada, Fransada, İtaliyada, Yunanıstanda bariz nümunələrini görmüşük. Hətta İngiltərədə insanların atların ayaqlarının altına alınması, Almaniyada nümayişçilərin itlərlə qorxudulması, hətta dişlədilməsi faktlarını da bilirik. Fransada isə "sarı jiletlilər"ə qarşı polislərin davranışları yaddan çıxmayan səhnələrdir.

Təbii ki, Azərbaycan polisindən bu cür davranış istəmirik və inanmırıq ki, hüquq-mühafizə orqanları bu cür addım atar. Lakin xalqın milli maraqlarına zidd addım atanlar, ictimai-siyasi asayişi pozmağa çalışanlar dövlətin sərt üzünü də görməlidir. Məsələn, ABŞ-da ictimai asayişi pozmağa cəhd edənlərə, polisin qanuni tələblərinə tabe olmayanlara 7, B.Britaniyada 10, Almaniyada 3, Fransada 2, İsveçdə 4, Finlandiyada 3, İtaliyada 1, Yaponiyada 1 il həbs cəzası verilir, eləcə də, cərimələr tətbiq olunur. Hətta son 2-3 ilin statistikasına görə, təkcə Vaşinqtonda minə yaxın insan icazəsiz aksiyalarda iştirak etdiyi üçün həbs edilib.

Doğrudur, AXCP üzvləri də Azərbaycan vətəndaşları və azərbaycanlıdırlar. Amma Azərbaycan vətəndaşının, bir azərbaycanlının dövlətinə və xalqına düşmən kəsilməsini heç cürə başa düşmək olmur. Bu səbəbdən də, ölkəmizin ictimai-siyasi sabitliyinin qorunması mütləq xarakter daşıyır, hansısa partiyanın, qrupun, şəxsin maraqları dövlətin və xalqın maraqlarından üstün ola bilməz.

Müasir dövrdə dövləti qorumaq ifadəsi artıq hərbçilərə, hüquq-mühafizə orqanlarına və siyasi elitaya aid edilmir. İnkişaf, inteqrasiya və qloballaşma hər bir insandan vətəndaşı olduğu dövlətini imkanları və tutduğu məqam çərçivəsində qorumağı tələb edir. Çünki dövlətin mənafeyinə dəyən zərbə vətəndaşın maraqlarını da, həyatını da alt-üst edir...

***"Səs" Analitik Qrupu***

## Paytaxtda quldurluq edən şəxs tutulub

Suraxanı Rayon Polis İdarəsinin 31-ci polis bölməsinə müraciət edən Yeni Suraxanı qəsəbə sakini Ə.Bayramova oktyabrın 5-də saat 4 radələrində evinə daxil olmuş 5 nəfərin ona fiziki zor tətbiq edərək 400 manat pulunu və mobil telefonunu apardıqlarını bildirib. Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, quldurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini H.Həsənov Baş İdarə və Suraxanı Rayon Polis İdarəsinin 31-ci polis bölməsi əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktla bağlı Suraxanı Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

## Qusarda 4 evdən 25 min manatlıq qızıl-zinət əşyaları oğurlayan şəxs saxlanılıb

Qusar Rayon Polis Şöbəsi (RPŞ) əməkdaşları cari ilin avqust-sentyabr ayları ərzində rayon ərazisində 4 evdən ümumi dəyəri 25 min manata yaxın olan qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən şəxsi saxlayıb. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Quba regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, saxlanılan rayon sakini, əvvəllər məhkum olunmuş Şahin Əfəndiyev törətdiyi cinayət əməllərini etiraf edib. Mənzillərdən oğurladığı qızıl-zinət əşyalarını Bakı şəhərində və Quba rayonu ərazisində dəyərindən ucuz qiymətə satan Ş.Əfəndiyev əldə etdiyi pulları xərclədiyini bildirib. Faktlarla bağlı Qusar RPŞ-nin İstintaq bölməsində cinayət işi başlanılıb. Araşdırma aparılır.



Təhmasib Novruzov

## İtinə "qızıl" adı qoyan kasıb və ya müxaliflərin ad oyunu

***Kim nə deyir desin, mən yazılarımda atalarımızın bizlərə qoyub getdiyi qiymətli kəlamlardan istifadə etməkdən yorulmuram. Mənim düşüncəmə görə, nə "Qabusnamə" kimi nəsihət kitabı, nə min illərdir fikirlərindən hər sahədə gen-bol istifadə olunan antik yunan filosofu Aristotel, nə də Qərbin dünyaca məşhur filosofları bizim atalarımızın miras qoyub getdiyi kəlamlardakı qədər dərin söz yükünə malik deyillər. Ona görə də, mən elə bu kəlamlardan, yeri gəldikcə, istifadə etməkdən usanmıram.***

Atalarımızın bir kəlamını da xatırlatmaq istəyirəm: "Kasıb itinin adını qızıl qoyar"! İndi kasıb yerində bizim bəzi antimilli siyasət dəllallarımızı görsək (yəni mənəvi kasıbları), yaratdıqları quruma verdikləri adları xatırlasaq, anlaşılar ki, bu misalın bizə hansı dəxli var! Heç yadımdan çıxmır, AXC hakimiyyətinin qızğın dövründə Azərbaycan Respublikası Prezident Aparatı Kadr və Ərazi-İdarəetmə Məsələləri üzrə Dövlət Müşaviri (?) Arif Hacılı düşmüşdü rayonların canına ki, vəzifədə olan hər kəs gecikmədən Müsavat partiyasına üzv olsun. Onu da deyirdi ki, tezliklə hakimiyyət tamamən müsavatlaşacaq və müsavatçı olmayanlar tutduqları vəzifələrində kənarlaşdırılacaq. Niyə Müsavat? Çünki 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin əsas ideologiyası olan müsavatçılığın xalq içində nüfuzu böyükdür. Rəsul müəllim demişkən, bədbəxtlər elə düşünürdülər ki, adını Müsavat qoydular, vəssalam, millət "hurray" deyib yüyürəcək onların ardınca. Bundan bir-iki il sonra AXC-nin "yurdçu"ları təşkilatın adının sonuna bir "P" hərfini əlavə edib, elədilər AXıCıPı! Azərbaycanın müstəqilliyi uğrunda ümumxalq hərəkatının önündə gedən bir qurum kimi, AXC adını özəlləşdirməklə, bu bədbəxtlər də elə bildilər ki, o, milyonların hamısı axışacaq AXıCıPı-ya. Beş-altı il bundan öncə, xaricdən alınan sifarişlə təzə bir qurum yaratdılar. Yenə Azərbaycan Xalq Cümhuruyyətinin parlamenti kimi əvəzsiz xidmətləri olan Milli Şuranın adını verdilər bu "Milli Şura"ya ki, camaat ağına-bozuna baxmayıb, elə adına görə bu qurumu baş tacı edəcək. Beləcə, millətin tarixində nə qədər mühüm rol oynamış qurumlar, ideologiyalar olubsa, hamısının adını verdilər özlərinin antimilli fəaliyyət göstərən təşkilatlarına. Nəticəsi? Nəticə hamıya məlumdur. Danışdıqca özlərini biabır elədilər, bağırdıqca, rüsvay oldular, ölkə əleyhinə hər cür hoqqadan çıxdılar və millət də onların simalarını (oxu: simasızlıqlarını) gördü, arxasına baxmadan qaçdı. Qaçdı ki, bu biabırçılıqda iştrakçı olmasın. Beləcə, yarpaq tökümü başladı, sonda da oldular payız ağacı kimi tək gövdə və bir-iki budaqla ortada. Bunlar yaxşı. Yəni xalqın bu adlara aldanmaması, reallığın gözünün içinə dik baxması çox gözəldi. Amma gözəl olmayan bir şey var axı!.. O da, ibarətdi ondan ki, bu millətin tarixində əvəzsiz rollar oynamış qurumların adlarından sui-istifadə olunub. Nəticəsində də, bu tarixi qurumların, ideologiyaların adlarını, xüsusilə, tariximizi kifayət qədər yaxşı bilməyənlər arasında, az da olsa, gözdən salıblar (Nə yazıqlar ki, yeni nəsil arasında tariximizi mükəmməl bilənlərin sayı o qədər də çox deyil.). Dəfələrlə qarşılaşmışam ki, Müsavat adı, ya AXC, ya da "Milli Şura" adı çəkib, nəsə demək istəyəndə, ağız büzüb gediblər. Bu gün tariximizin böyük xəzinələrinə bu cür hörmətsizlik gətirməyin özü milli xəyanət deyilsə, bəs nədir? Bu adlardan istifadə edən toplum, onun tarixi nüfuzuna xələl gətirilməməsi naminə, gərək idi ki, məsuliyyət hiss edəydilər. Amma etmədilər və artıq bundan sonra hiss edəcəkləri məsuliyyətin də bir faydası olmayacaq. Bilmirəm, bəlkə tariximizə edilən bu sui-qəsdə görə günahkarları cəzalandırmaq haqqında düşünək ki, bu adların nüfuzunu yenidən özünə qaytarmaq mümkün olsun! Axı hakimiyyət xatirinə, vəzifə və kreslo xatirinə babalarımızın yaratdığı irsə xələl gətirməyin özü qədər milli xəyanət nə ola bilər? Bu siyasət dəllalları kasıb itinə qızıl adı verib, varlanacağını düşündüyü kimi, qurumlarına müqəddəs irsimizdəki ən qiymətli adları verib, bu yolla nüfuzlu olacaqlarını, hakimiyyətə gələcəklərini hesablamışdılar. Amma "qızıl" itin sahibi necə varlanardısa, bunlar da eləcə hakimiyyətə gələ bilərdilər. Necə ki, gələ bilmədilər və gələ də bilməyəcəklər!..

# Milli suverenlik və insan haqları

***Mahiyyət etibarilə, qloballaşma "bəşəriyyət" anlayışını yeni ontoloji məzmunla zənginləşdirir, bütün xalqlar üçün vahid həyat və fəaliyyət məkanı formalaşdırır. Bu məkanın hüdudları və dərinliyi getdikcə artır, qarşılıqlı asılılıq dərəcəsi günbəgün yüksəlir. Qarşılıqlı asılılıq amili ilə yanaşı, qloballaşmanın digər sistemformalaşdırıcı meyili "transmilliləşdirmədir". Bu fenomen də tədqiqatçıların diqqət mərkəzində durur və ciddi elmi müzakirələrə səbəb olur. Transmilliləşmənin mübahisəli kontekstini iki halla izah etmək olar.***

Birincisi, qloballaşma prosesi ilkin, bifurkasiya fazasındadır və tamamilə təbiidir ki, onun bir çox mahiyyət xüsusiyyətləri bütün keçid proseslərinə xas olan qeyri-müəyyənliklə xarekterizə olunur. İkincisi, inkar etmək olmaz ki, bəşəriyyət milli sərhədlərin mürəkkəb toru ilə sarınmışdır və tarixin (və yaxud sosial-mədəni resursun) böyük hissəsi "milli" mənşəyə malikdir. Məhz bu hal milli amilin itməsi və yoxa çıxması ehtimalını qəbul etməyə və yaxud qloballaşmaya adaptasiya olunmaq üçün milli özünüməxsusluğun və milli identikliyin qurban verilməsi fikri ilə razılaşmağa yol vermir. Bu, qloballaşmanın çox ciddi, lakin heç də yeganə olmayan tələbidir ki, bilavasitə insan hüquq və azadlıqları məsələsi ilə bağlıdır. Belə ki, milli identikliyini itirən insan çox şeyi, o cümlədən, dini etiqad azadlığını və mədəni özünəməxsusluq hüququnu itirir.

Qeyd etmək istərdik ki, Azərbaycan Respublikasının Konstitusiyasında dini etiqad azadlığı prinsipi əksini tapmışdır. Dini plüralizm bütün dini cərəyanların nümayəndələrinə münasibətdə tolerantlığın öncül olduğu Azərbaycan cəmiyyətinin əsaslarından biridir. Lakin akademik R.Mehdiyevin vurğuladığı kimi, "Azərbaycanın heç bir vətəndaşı din pərdəsi altında antimilli təbliğat aparan, habelə, dövlətçiliyin dağılmasına kömək göstərən, gələcək vətəndaş münaqişələrinin təməlini qoyan, ölkə vətəndaşlarını dini dözümsüzlüyə, dövlət və dünyəviliklə bağlı hər şeyə biganəliyə çağıran, müsəlmanların, təriqətçi olmayan xristianların və iudaistlərin baxışlarına qeyri-müqabil və dözülməz münasibət göstərən təşkilatların qanun qarşısında labüd surətdə məsuliyyət daşıdığını da şübhə altına almamalıdır".
Aydındır ki, əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycan üçün qloballaşma dövründə, bəzilərinin dediyi kimi, "qlobal qərbləşmə müstəmləkəçiliyi epoxasında" cəmiyyətdə islamın rolu və yeri haqqında dəqiqliklə müəyyən edilmiş xəttin olması vacibdir. Görkəmli islam alimi Yusif əl-Kərdavinin təbirincə desək, müstəmləkəçiliyin ən təhlükəli növlərindən biri olan ideya müstəmləkəçiliyi torpaqları deyil, zehinləri zəbt edir, zəka isə torpaqdan deyil, qələmdən istifadə edir.

Cəmiyyətdə demokratiyanın genişlənməsi və dərinləşməsi ilə müşayiət edilən liberallaşma dini kosmopolitizmə gətirməməlidir. Belə ki, müəyyən mənəvi-əxlaqi meyarlar və qaydalar sistemi olmadan cəmiyyət öz üzvlərinin kamil və davamlı inkişafına təminat verə bilməz. Həmçinin, vacibdir ki, din siyasi konyukturа alətinə çevrilməsin, cəmiyyətin inkişafına xidmət etsin. 1997-ci il tarixli "Dini etiqad azadlığı haqqında" qanunda nəzərdə tutulmuş dəyişikliklər, məhz bu məqsədlə qəbul edilmişdir. Bu dəyişikliklər əsasən, xaricilərin Azərbaycan ərazisində missionerlik fəaliyyətini məhdudlaşdırmağa yönəldilmişdir.

Burada qlobal miqyasda coğrafi və iqtisadi vəziyyətindən, siyasi quruluşundan, milli mentalitetindən, hansı dinin dominantlığı etməsindən asılı olmayaraq, ayrı-ayrı cəmiyyətlərin demokratikləşməsi, bütün ölkələrdə insan hüquqlarının dəstəklənməsi məsələsi ön planda olmalıdır. Yalnız bu halda, "demokratiyanın yeni dalğası" məfhumu öz real mənasına adekvatlıq tapar. Hər hansı maddi ehtiyaclardan, iqtisadi motivlərdən qaynaqlanan münasibət qlobal demokratikləşmənin qarşısını almamalıdır. İnsan hüquqlarına hörmət, onların etibarlı qorunması aparılan bütün işlərin meyarı və nəticəsi kimi nəzərdə tutulmalıdır. Şübhəsiz ki, bu kontekstdə, dünya dövlətləri və yanaşı beynəlxalq təşkilatların üzərinə də böyük vəzifə düşür. C.Sorosun qeyd etdiyi kimi, insan hüquqları və demokratiya məsələsində məsuliyyəti üzərinə götürmək beynəlxalq təşkilatların borcudur. O, hətta belə bir müddəa ilə çıxış edir ki, dövlətlər özlərinə məxsus suverenitetin bir hissəsinin beynəlxalq təşkilatlara verə bilərlər. Misal olaraq, C.Soros öz suveren hüquqlarından əhəmiyyətli dərəcədə imtina etmiş Avropa İttifaqı ölkələrini göstərir.

Müasir dövlətlərin çoxunda həyatın bütün sahələrini, o cümlədən, iqtisadiyyatı əhatə edən demokratik islahatlar, korrupsiyanın aradan qaldırılması, özünütəcriddən xilas olunması, əhatəli özəlləşdirmə, etibarlı xarici investisiya qoyuluşuna şərait yaradılması, azad bazar siyasətinin davamlı aparılması, bürokratizasiyanın məhdudlaşdırılması və s. sağlamlaşdırıcı layihə və tədbirlərin həyata keçirilməsi bu dövlətlərin ümumdünya iqtisadi inteqrasiya proseslərinə qoşulmasının və dünya iqtisadi məkanında öz yerini müəyyənləşdirməsinin başlıca əlamətinə çevrilməkdədir. Hər halda, rəsmi bəyanatlar səviyyəsində bu, belədir.

Aydındır ki, milli iqtisadiyyatlar dünya təsərrüfat sisteminin tələblərinə müvafiq olaraq inkişaf etməyə, bu sistemdə özlərinin normal fəaliyyət şəraitini reallaşdırmağa çalışırlar. Bunun üçün isə, ilk növbədə, milli iqtisadi təhlükəsizlik tədbirləri həyata keçirilməlidir. Əks-təqdirdə, iqtisadi qloballaşma şəraitində milli hökumətlər öz iqtisadiyyatlarına nəzarət imkanından məhrum ola bilərlər. Milli dövlətlərin suverenliyinin sarsılması isə, bilavasitə millət, xalq və şəxsiyyət suverenliyinin pozulması ilə nəticələnir ki, artıq insan hüquqları ideyasının hərtərəfli və etibarlı təmin olunması üçün zəruri şərtlər və imkanlar itirilir. İqtisadi təhlükəsizliyi, suverenliyi sarsılmış dövlət həmişə öz vətəndaşlarının hüquq və azadlıqlarının qorunmasında aciz və gücsüz olur. Bir qayda olaraq, bu halda yerli əhali ucuz işçi qüvvəsinə çevrilir, milli sərvətlər xarici iş adamları və kompaniyalar tərəfindən mənimsənilir, insanların istismar olunmasına münbit şərait yaranır, onların vətəndaş hüquqları total surətdə pozulur, ümumi mənəvi-psixoloji durumda destruksiya baş verir ki, cəmiyyətdə sosial anomiya mühiti formalaşır, həm ayrı-ayrı fərdlər, həm də sosial qruplar və bütövlükdə, cəmiyyət səviyyəsində ciddi deformasiyalar və aşınmalar təkan alır və dərinləşir.

Dünya iqtisadiyyatı, maliyyəsi və ticarəti sahəsində əsas qloballaşdırıcı funksiyanı yerinə yetirən tansmilli korporasiyalar (TMK), Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı (DB), Ümumdünya Ticarət Təşkilatı (ÜTT), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ilə əməkdaşlıq dövlətlər üçün çox əhəmiyyətlidir. Müəyyən şərtləri nəzərə almaqla, yalnız milli mənafeləri əsas tutaraq, bu qurumlarla əməkdaşlıqda uğur qazanmaq, real faydalı inteqrasiya mühitinə daxil olmaq mümkündür.

Milli iqtisadiyyatların inkişafında qeyri-bərabərliyin azaldılması, inkişaf etməkdə olan ölkələrin zəngin təbii sərvətlərindən istifadəyə cəlb edilmiş investorlar tərəfindən həmin ölkələrin sosial, ekoloji, mədəni və digər problemlərinə prioritet verilməsi, zəmanət sistemi kifayət qədər formalaşmamış ölkələrə borcların verilməsində yaranan prosedur çətinliklərinə həssaslıqla yanaşılması qloballaşmanın müsbət nəticələrini artıra bilər ki, bu da, öz növbəsində, insan hüquq və azadlıqların reallaşması üçün əlavə imkanlara, resurs və vasitələrə yol açar. Dünya maliyyə sisteminin yeniləşməsi və möhkəmləndirilməsi, ölkələrarası ticarətin yeni bərabərhüquqlu qaydalar sisteminin formalaşdırılması, dövlətlərin öz qanunvericiliklərində antikorrupsiya tədbirlərini nəzərdə tutması və bu istiqamətdə ardıcıl iş aparması, müasir dünyanın iqtisadi həyatını yaxşılaşdırmaqla yanaşı, insan hüquqları sahəsində də böyük irəliləyişə səbəb olar. İşçi qüvvəsindən istifadənin qloballaşması şəraitində beynəlxalq əmək bölgüsündə humanist prinsiplərə cavab verən yeni mexanizmlərin tətbiqi də olduqca zəruri bir məsələdir ki, hal-hazırda gündəlikdə durur.

Bütün dünya üçün nəzərdə tutulan konsept, monosentrik ideyalar və təsəvvürlər sistemi əsasında qurula bilməz. Universal konsept nə amerikasayağı, nə də avropasayağı yeganə baxış bucağını qəbul etmir. Monosentrizm elə demokratiyanın özünü də boğan, sıxışdırıb meydandan çıxaran yanaşmadır. Qloballaşmanın monosentrik təməldən qaynaqlanaraq intensivləşməsi və yayılması, bütün hallarda, ideyalar, baxışlar avtoritarizmdir ki, real diktaturalara yol açır. Nəticədə isə söz, iradə, fikir, dini etiqad azadlığı, layiqli yaşayış haqqı alçatmaz mifə və reallaşmayan xəyallara çevrilir.

Qloballaşma tərəfdarları belə mülahizələrə əsaslanırlar: iqtisadi maraqların həyata keçirilməsi həmişə fəaliyyət və əmtəə mübadiləsinin universal prinsipləri ətrafında təşkilatlanmış insanlar arasında qeyri-zorakı qarşılıqlı əlaqəni tələb edir, maraqlar insanları yaxınlaşdırır, hamı üçün anlaşıqlı olan prinsiplər onların hərəkətlərini bəlli edir. Lakin məsələ ondadır ki, müasir qloballaşmanın arxasında dayanan əsas iqtisadi maraqlar subyekti - korporasiyalardır. Bu fakt çox seyi dəyişir. Adi insan iqtisadi qloballaşmanın əlaqələr sisteminə, ən yaxşı halda, Adam Smitin mücərrəd "iqtisadi adam"ı kimi buraxılır. Hətta ABŞ kimi dövlətin prezidenti də korporasiyaların marağı qarşısında çox xırda, "qulaq asmalı olan" fərdə çevrilir. Korporasiyaların maraq və məqsədləri isə, heç də ümumdünya birliyini və həmrəyliyini bərqərar etməkdən ibarət deyildir. Onlar əsasən və başlıca olaraq, bir istiqamətdə köklənib: mümkün qədər tez və çoxlu gəlir götürmək, mənfəət əldə etmək, dünyada mövcud olan fərq və ziddiyyətlərdən effektli istifadə edərək, yeni-yeni mənbələr və resurslar ələ keçirmək, sərvətlərə sahib çıxmaq.

Dünyanın həmrəyliyinə, bəşəri harmoniyaya xələl yetirən bu qeyri-məqbul strategiyanın həyata keçirilməsi məqsədilə, yeri gələndə, ayrı-ayrı dövlət başçılarına, siyasi xadimlərə ciddi təzyiqlər edilir, başqa ölkələrin iqtisadi həyatında təsirli yer tutub möhkəmlənmək üçün müxtəlif adlar altında QHT-lər, fondlar, hərəkatlar yaradılır, sərfəli "ictimai-siyasi eşalon" formalaşdırılır, mədəniyyət sahəsi, kütləvi informasiya vasitələri ələ keçirilir, "cəlb" olunmuş müxbirlər, incəsənət adamları və ictimai-siyasi xadimlər vasitəsilə ictimai rəyə və psixologiyaya, insanların dünyagörüşünə, zövq və istehlak tələblərinə lazımi yönüm verilir. Azərbaycana münasibətdə də biz bunu görürük.

Xüsusi zərurət olduqda, transmilli korporasiyalar, böyük şirkətlər və onların təsiri altında hərəkət edən güc mərkəzləri, dövlət xadimləri, siyasi mafiya şəbəkələri, bilavasitə hansısa ölkələrdə siyasi hakimiyyətin "demokratik qaydalara uyğun" formalaşmasına girişirlər və faktiki olaraq, xalqların azad, sərbəst seçim hüququnu pozurlar. Məkrli strategiyanın müəllifləri və icraçıları, faktiki olaraq, elə bir şərait yaradırlar ki, rəsmən müstəqil sayılan ölkədə insanlar seçki yolu ilə öz iradəsini ifadə edə bilmirlər. Daha dəqiq desək, insanların seçmək və seçilmək hüququ total şəkildə tapdalanır, xalq hakimiyyətin mənbəyi rolunda çıxış edə bilmir. Beləliklə də, beynəlxalq güclərin təsiri altında yaşayan cəmiyyətdə ümumi inkişaf əngəllənir, adamların gələcəyə ümidi qırılır, xalqı səfalətə sürükləyən bir çox nöqsanlar ortaya çıxır. Asiya, Afrika, Latın Amerikasında bir çox ölkələrin ağır vəziyyəti, zəlil günə qalması buna əyani sübutdur. Aydındır ki, belə gedişat demokratiyanın qlobal miqyasda qərarlaşmasında da ciddi əngəllər yaradır. Bu isə, öz növbəsində, insan hüquqlarının təmin olunması sahəsində bəşəriyyəti bir çox ağır problemlərlə üzləşdirir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*



# YAP Binəqədi rayon təşkilatının kollektivi Qobustan Milli Tarixi-Bədii Qoruğuna ekskursiya edib

***Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının aylıq təsdiq edilmiş iş planına uyğun olaraq, təşkilatın kollektivi Qobustan Milli Tarixi-Bədii Qoruğuna ekskursiya edib. Ekskursiyanın təşkil edilməsində əsas məqsəd Azərbaycanın zəngin tarixi keçmişinin, ənənələrinin, milli-mənəvi dəyərlərinin gənclər arasında araşdırılması, öyrənilməsi, təbliğ edilməsi və onlarda vətənpərvərlik hisslərinin daha da yüksəldilməsidir.***

Ekskursiya zamanı kollektivə qoruq və onun tarixi haqqında ətraflı məlumat verən YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov bildirib ki, Qobustanda tapılan maddi mədəniyyət qalıqları kompleksinin tarix və mədəniyyət üçün müstəsna əhəmiyyəti nəzərə alınaraq, 1966-cı il 9 sentyabr tarixində Qobustan dövlət tarixi-bədii qoruğu elan edilib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və səyi nəticəsində, 2007-ci ildə UNESCO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilib. Qoruq Bakının Qaradağ rayonu ərazisində, əsasən, üç dağın (Böyükdaş, Kiçikdaş və Cingirdağ) yerləşdiyi böyük bir ərazini əhatə edir. Qoruq üçün muzey və inzibati bina kompleksi isə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2011-ci ildə inşa edilərək istifadəyə verilib. Qoruqda əsasən, mezolit (orta daş dövrü) abidələri sərgilənir.

R.Göyüşovun sözlərinə görə, gənclərimiz bu cür tarixi abidələrimizi və muzeylərimizi, davamlı olaraq, ziyarət etməli, xalqımızın çoxəsrlik tarixini dərindən bilməli və onun ən böyük təbliğatçısı olmalıdır. Çünki Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması kimi müqəddəs missiyamızda gəncliyimizin üzərinə də böyük məsuliyyət düşür.

***Zümrüd BAYRAMOVA***

# "İşsizin dostu" proqramı çərçivəsində ictimai işlərlə təmin olunan işçilərin siyahısı açıqlanıb

***"İşsizin dostu" proqramı çərçivəsində ictimai işlərlə təmin olunan işçilərin siyahısı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytında (http://sosial.gov.az/list-of-persons-involved-in-social-work) yerləşdirilib. Prezident İlham Əliyevin təşəbbüsü ilə vətəndaşların məşğulluğunun təmin edilməsi istiqamətində həyata keçirilən proqram və cəlb edilən əməkdaşlarla bağlı bütün məlumatlara çıxış imkanları genişləndirilib.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, artıq hər kəs sayta daxil olaraq proqram çərçivəsində ictimai işlərlə təmin olunan şəxslərin adlı siyahısı ilə tanış ola bilər. Bu addım proqramın icrası zamanı ictimai açıqlıq prinsipinin təmin olunması üçün atılıb.


**ELAN**

"Atəşgah" Sığorta Şirkətinə aid olan 25 (iyirmi beş) ədəd BA 946935 nömrəsindən BA 946959 nömrəsinədək icbari əmlak sığortası blankları itdiyi üçün etibarsız sayılır.




# BSU-nun 3 tələbəsinin təhsil xərcləri Gənclər Fondu tərəfindən ödəniləcək

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 mart 2018-ci il tarixli 1871 nömrəli əmrinə əsasən, Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsinin 3.1.9-cu yarımbəndinə uyğun olaraq, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər qrupuna daxil olan istedadlı gənclərin təhsil xərclərinin maliyyələşdirilməsi müsabiqəsi həyata keçirilib. Keçirilmiş müsabiqə nəticəsində, Bakı Slavyan Universitetinin Pedaqoji fakültəsinin "Təhsildə sosial-psixoloji xidmət" ixtisasının tələbəsi Aysel Məmmədovanın, Tərcümə fakültəsinin "Azərbaycan-rus dilləri tərcüməsi" ixtisasının tələbələri Ülkər Ağayevanın və Səbinə Qədirovanın təhsil xərclərinin Azərbaycan Respublikasının Gənclər Fondu tərəfindən qarşılanması barədə qərar qəbul edilib.




BSU-nun müsabiqənin qalibi olmuş tələbələri bildiriblər ki, keyfiyyətli təhsilin gənclər üçün əlçatanlığının artırılması, yüksək intellekt səviyyəsinə, sağlam və müasir düşüncəyə malik, milli-mənəvi dəyərlərə sadiq vətənpərvər gəncliyin yetişdirilməsi, eləcə də, sosial müdafiəyə ehtiyacı olan gənclərin dəstəklənməsi ölkəmizdə uğurla həyata keçirilən dövlət-gənclər siyasətinin əsas istiqamətlərindən biridir. Tələbə-gənclər təhsilin inkişafına və gənclərə göstərilən hərtərəfli dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya təşəkkür ediblər.

***ZÜMRÜD***

# YAP Şəmkir rayon təşkilatında görüş keçirilib

Dünən Yeni Azərbaycan Partiyası Şəmkir rayon təşkilatının Regional Mədəniyyət İdarəsi ilk partiya təşkilatında növbəti görüş keçirilmişdir. Görüş Şəmkir şəhər Ə.Cavad adına Mədəniyyət Mərkəzinin akt zalında keçirildi. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Tədbirdə çıxış edən YAP Şəmkir rayon təşkilatı, Regional Mədəniyyət İdarəsi ilk partiya təşkilatının sədri Cavanşir Pirverdiyev bildirdi ki, Yeni Azərbaycan Partiyası xalq üçün, Azərbaycanın gələcəyi üçün yaradılıb. Ümummilli Lider Heydər Əliyevi də hakimiyyətə xalq gətirdi: "O, xalqı və dövlətimizi bütün təhlükələrdən xilas etdi. Bu gün Azərbaycan dinamik inkişaf edən dövlətdir, ölkəmizin dünyada böyük nüfuzu var. Son 16 ildə ölkəmizdə böyük inkişaf baş verib: bu müddət ərzində, görülən işlərə Prezident-xalq birliyi nəticəsində nail olunub. Dünyanın heç bir ölkəsində Azərbaycandakı kimi iqtisadi artım və inkişaf yoxdur".



Cavanşir Pirverdiyev xaricdəki mühacir azərbaycanlıların yanlış yolda olduğunu vurğuladı. O, qeyd etdi ki, mühacirlər ələ alınıb, Azərbaycana qarşı istifadə edilirlər: "Bu insanlara qarşı susmaq lazım deyil. İnzibati tədbir görməklə, tərbiyə mümkün deyil. Bu, daha çox ictimai qınaq səviyyəsində olmalıdır".

YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev isə çıxışında bildirdi ki, bu gün sosial şəbəkələrin imkanlarından düzgün olmayan şəkildə istifadə edilir. Bu imkanlardan istifadə olunaraq, cəmiyyətdə qarışıqlıq yaratmaq istəyənlər var. Onların arxasında bəzi xarici dairələr dayanır. Həmin insanları maliyyələşdirənlər sırasında erməni lobbisi xüsusi yer tutur. F.Vəliyev qeyd edib ki, xaricdəki mühacir azərbaycanlıların bəziləri Azərbaycanda aparılan işlərə-islahatlara, abadlıq-quruculuq işlərinə kölgə salmağa cəhd edirlər. Onlar yalan məlumatlar yaymaqla məşğuldurlar. Belə olan halda, YAP üzvləri daha fəal olmalıdırlar. Başqa ölkələrin 100 ildə keçə bilmədiyi yolu Azərbaycan qısa müddətdə keçdi. Əgər bir ölkədə ictimai-siyasi sabitlik yoxdursa, orada inkişafdan söhbət gedə bilməz. Azərbaycan sabitlik adasıdır.

Çıxış edən YAP Şəmkir rayon təşkilatının aparat rəhbəri Şövqi Həsənov son illər Azərbaycanda bütün sahələr üzrə çox böyük islahatlar həyata keçirildiyini və Azərbaycanın gələcəyinin daha parlaq olacağını bildirdi. Çünki bu parlaq gələcəyi yaratmağa qadir olan çox ləyaqətli gənclərimiz yetişib. Onlar gələcəkdə Ulu Öndər Heydər Əliyevin ideyalarını, eləcə də, Onun layiqli davamçısı olan Prezident İlham Əliyevin həyata keçirdiyi tədbirləri layiqincə davam etdirmək potensialına malikdirlər. Çünki gənclər cəmiyyətin aparıcı qüvvəsi kimi cəmiyyət həyatında mühüm rol oynayırlar.

***RƏFİQƏ KAMALQIZI***


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**